9 dekabr 2022 №91 (1964)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Əlaqələrimiz güclənir və yeni imkanlar yaranır

### Albaniya Baş naziri Bakıya səfər edib



Dekabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Baş naziri Edi Rama ilə təkbətək görüşü olub.

Qonağı salamlayan Azərbaycan Prezidenti İlham Əliyev ötən ay Albaniyaya səfərini məmnunluqla xatırlayıb: "Razılığa gəldiyimiz kimi, biz fəal dialoqu davam etdirəcəyik. Sizin səfəriniz artıq razılaşdırılmış məsələlərin gedişatını izləmək xarakteri daşıyır. Hər iki tərəfdən bütün tapşırıqlar verilib. Heyətlərimiz fəal şəkildə işləyirlər. Mənim rəsmi səfərimin nəticələri olduqca müsbətdir. Bizim əlaqələrimiz güclənir və yeni imkanlar yaranır. Sizə məlumat verdiyim kimi, biz Tiranada səfirlik açırıq və bu da əməkdaşlığımızın vacib bir əlamətidir. Praktiki nöqteyi-nəzərdən bu, bizə ölkənizdə gedən proseslərlə daha yaxından tanış olmaq imkanı verəcək. Eyni zamanda, bu, bizə ikitərəfli gündəliyimizdə daha da səmərəli olmağa imkan yaradacaq".

Albaniyanın Baş naziri Edi Rama Azərbaycana yenidən gəlməsindən şərəf duyduğunu bildirib: "Məsələlərin gedişatı ilə bağlı təəssüratım heyrətamizdir. İndi ölkəmizdə Azərbaycan səfirliyinin açılması çox vacib bir məsələdir. Qalan digər məsələlərə gəldikdə isə Siz dediyiniz kimi, biz işi davam etdirməliyik".

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Albaniyanın Baş naziri Edi Rama ilə işçi səhər yeməyi əsnasında geniş tərkibdə görüşü olub.

Dövlətimizin başçısı Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın çəkdiyi rəsm əsərini və Leyla Əliyevanın əsərlərinin kataloqunu qonağa hədiyyə edib. Sonda xatirə şəkli çəkdirilib.

## Ulu öndərin anım gününə həsr edilmiş gecə

Dekabrın 8-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Ulu öndər Heydər Əliyevin anım gününə (12 dekabr) həsr olunmuş tədbir keçirildi.

Anım tədbiri Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Əməkdar artist Aybəniz Haşımovanın rəhbəri olduğu "Sənət" Akademiyasının təşkilatçılığı ilə gerçəkləşdi.

səh. 2

## CNN kanalında Azərbaycan mədəniyyətinin təbliği davam etdiriləcək

Mədəniyyət naziri Anar Kərimov dekabrın 7-də ABŞ-nin CNN telekanalının ölkəmizdə səfərdə olan regionlar üzrə nümayəndəsi İmran Əhməd və sosial şəbəkə hesabları üzrə direktoru Zara Drissi qəbul edib.

səh. 2

## Moskvada Bülbülün 125 illiyi qeyd olunub




Moskvadakı Rusiya Milli Musiqi Muzeyində Azərbaycan professional vokal məktəbinin banisi, görkəmli opera müğənnisi, SSRİ Xalq artisti Bülbülün (1897-1961) anadan olmasının 125 illiyinə həsr edilmiş gecə keçirilib.

Tədbir çərçivəsində təşkil olunmuş sərgidə Azərbaycan və Rusiya muzeylərindən seçilmiş eksponatlar nümayiş etdirilib. Bülbülün repertuarından əsərlər səslənib.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu tədbiri açaraq qeyd edib ki, Bülbül bütün həyatını incəsənətə və öz xalqına həsr edib. İtaliyada məşhur La Skala Teatrında təcrübə keçəndən sonra Vətənə qayıtmış müğənni Azərbaycan, Avropa və rus vokal məktəblərinin sintezini yaradaraq vokal sənətinə yeni münasibətin əsasını qoyub.

davamı səh. 3-də

## Mədəni sərvətlərin qorunmasında UNESCO necə rol oynayır?

### "Bu təşkilatdan qəbul etdiyi konvensiyalara sadiqlik nümayiş etdirməsini gözləyirik"



Dekabrın 8-də ADA Universitetində "Mədəni sərvətlərin qorunmasında UNESCO konvensiyalarının rolu və onların tətbiqinin təkmilləşdirilməsinin aspektləri" mövzusunda beynəlxalq elmi konfrans keçirilib. Tədbir UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutu, ICOMOS Azərbaycan Milli Komitəsi və ICOM Azərbaycan Milli Komitəsinin birgə təşkilatçılığı ilə gerçəkləşib.

Konfransın açılış mərasimində Azərbaycan Respublikası Baş nazirinin müavini və "Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında Konvensiya"nın müddəalarının yerinə yetirilməsi üzrə Komissiyanın sədri Əli Əhmədov, mədəniyyət naziri Anar Kərimov, xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev, Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev çıxış ediblər.

ADA Universiteti İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadə konfrans iştirakçılarını salamlayıb. O, konfrans öncəsi, dekabrın 7-də Ağdam və Füzuliyə səfər edərək Qarabağdakı dağıntıları, yenidənqurma və bərpa işlərini yerində müşahidə edən Fransa, İsrail, Pakistan, Rumıniya, Rusiya, Sloveniya, Türkiyə və Ukraynadan olan iştirakçılara minnətdarlığını bildirib.

Konfransda çıxış edən Baş nazirin müavini Əli Əhmədov Azərbaycanın UNESCO-nun mədəniyyət, təhsil, ekologiya, idman və digər sahələr üzrə ümumilikdə 14 Konvensiyasına üzv olduğunu vurğulayıb. Diqqətə çatdırılıb ki, onlardan ikisi – 1954-cü il Haaqa Konvensiyası və 1972-ci il Dünya İrs Konvensiyası bilavasitə mədəni sərvətlərin qorunması üçün əhəmiyyət kəsb edir. Baş nazirin müavini əlavə edib ki, Azərbaycan bu Konvensiyalardan irəli gələn öhdəliklərə sadiq qalır.

Mədəniyyət naziri Anar Kərimov ölkəmizin mədəni irsinin UNESCO-nun müvafiq siyahılarında yer almasından söz açaraq diqqətə çatdırıb ki, bu günlərdə təşkilatın Hökumətlərarası Komitəsinin 17-ci sessiyasında Azərbaycanın qeyri-maddi mədəni irsi ilə bağlı daha 4 element "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı"na salınıb. İndiyə kimi ümumilikdə Azərbaycanın qeyri-maddi mədəni irsi ilə bağlı 19 nominasiya UNESCO-da qeydə alınıb. Onlardan 17-si reprezentativ siyahıya, 2-si isə təcili qorunmaya ehtiyacı olan irs nümunəsi kimi siyahıya daxil edilib. Nazir qeyd edib ki, növbəti illərdə Azərbaycanın yeni nominasiyalarının da UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına qəbul edilməsi gözlənilir.

davamı səh. 2-də

## "Mədəniyyətlərimizi bölüşmək çox vacibdir"

Dekabrın 7-də Nizami Kino Mərkəzində Özbəkistan kinosu günlərinin açılış mərasimi olub. Kino günləri Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi və Özbəkistanın ölkəmizdəki səfirliyinin təşkilatçılığı ilə keçirilir.

Açılış mərasimində Əməkdar incəsənət xadimi Ayaz Salayev çıxış edərək özbək kinosuna marağının hələ uşaq vaxtlarından başlandığını deyib: "Uşaq idim, atam mənə böyük alim və hökmdar Uluqbəy haqqında danışırdı. O vaxtlar məni daha çox Avropa filmləri maraqlandırsa da, atamın danışdıqları ürəyimdə Şərqə, xüsusilə də Özbəkistana qeyri-adi maraq oyatdı. Biz sovet dönəmində bir bayraq altında yaşadıq. Sonradan SSRİ dağılsa da, özbək və Azərbaycan xalqları bir-birindən ayrılmadı, əlaqələrimiz davam etdi. Türk dünyası xalqlarının bir araya gəldiyi vaxtda mədəniyyətlərimizi bölüşmək, birgə layihələrlə çıxış etmək çox vacibdir".

Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev ölkəmizdə Özbəkistan kinosu günlərinin təşkil olunmasının əhəmiyyətindən söz açıb. Bildirib ki, özbək kinematoqrafiyasının Şərq kinosunda, ümumiyyətlə, postsovet məkanında özünəməxsus yeri var. Sovet dövründə bir çox özbək aktyorları "SSRİ-nin Xalq artisti" fəxri adına layiq görülüb: "Onlardan ən məşhuru Kamil Yarmatovun yaradıcılığını xüsusi qeyd etmək olar. Nəbi Qəniyevin "Tahir və Zöhrə" filmi özbək kinosuna hər zaman işıq salmaqdadır. "Yeddinci güllə", "Fövqəladə komissar" filmlərini, Əli Xamrayevin ekran əsərlərini, Şöhrət Abbasovun yaradıcılığını, xüsusən də "Sən yetim deyilsən" filmini maraqla izləmişəm. Bir sözlə, özbək filmləri unikaldır, diqqətəlayiqdir".




davamı səh. 3-də

## Bursada "Şuşa günləri"

2022-ci ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" olan Türkiyənin Bursa şəhəri bu missiyanı Azərbaycanın Şuşa şəhərinə təhvil verməyə hazırlaşır. 8-9 dekabr tarixlərində Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun və Bursa Böyükşəhər Bələdiyyəsinin təşkilatçılığı, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un iştirakı ilə Bursada "Şuşa günləri" keçirilir. Tədbirdə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" estafeti Bursadan Şuşaya təhvil veriləcək.




Açılış mərasimində Bursa Böyükşəhər Bələdiyyəsinin başqanı Alinur Aktaş, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, TÜRKSOY-un baş katibi Sultan Raev, Türk Dövlətləri Təşkilatının baş katibi Kubanıçbek Ömüraliyev və Bursa valisi Yakup Canbolat çıxış ediblər. Çıxışlarda "mədəniyyət paytaxtı" ili çərçivəsində Bursada ortaq mədəniyyətimizi əks etdirən festivalların, idman oyunlarının, digər tədbirlərin keçirildiyi, bununla əlaqədar Türk dünyasından çox sayda siyasətçinin, mədəniyyət və elm xadimlərinin Bursaya gəldiyi qeyd olunub.

davamı səh. 2-də

## Mədəniyyət paytaxtımızı daha geniş təbliğ etmək üçün...

Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin dəstəyi ilə 26-28 avqust tarixlərində Azərbaycanın mədəniyyət paytaxtında yaradıcı insanların iştirakı ilə "Şuşa yaradıcılıq emalatxanası" adlı layihə həyata keçirilmişdi.




"Şuşa İli" çərçivəsində gerçəkləşən layihə çərçivəsində müxtəlif peşə istiqamətləri üzrə Azərbaycandan və Türkiyədən olan yaradıcı insanlar Şuşada bir araya gəlmişdilər. Üç gün ərzində Şuşa ilə yaxından tanış olan 30-a yaxın bəstəkar, musiqişünas, yazıçı, fotoqraf, rəssam və digər sənət sahibləri səfər təəssüratı altında uyğun istiqamətlər üzrə əsərlər, əl işləri yaradıblar.

Dekabrın 8-də Beynəlxalq Muğam Mərkəzində layihənin yekun tədbiri keçirildi.

davamı səh. 2-də




## "Dərələr"dən "Yavaş-yavaş"...

### Şövkət Ələkbərovanın 100 illiyinə həsr olunan musiqi axşamı

Görkəmli müğənni, pedaqoq, Xalq artisti Şövkət Ələkbərovanın (1922-1993) 100 illik yubileyi mədəniyyət ocaqlarında müxtəlif tədbirlərlə qeyd olunur.

Dekabrın 7-də Beynəlxalq Muğam Mərkəzində unudulmaz müğənninin yubileyinə həsr olunan konsert keçirildi.

Konsertdən öncə Şövkət Ələkbərovanın gəlini, Tofiq Quliyev adına 12 nömrəli onbirillik Musiqi məktəbinin direktoru Gülnarə Səfərova qəzetimizə açıqlamasında gənc nəslin Şövkət xanımın repertuarına müraciət etməsinin böyük məmnunluq doğurduğunu bildirdi: "Şövkət Ələkbərovanın yaradıcılığına nəzər yetirsək görərik ki, o, vətənpərvər ruhlu mahnılar da ifa edib. Çox xoşbəxtəm ki, bugünkü konsertdə həmin mahnılar yenidən ifa olunacaq".

davamı səh. 3-də

### Fiziki imkanları məhdud şəxslərin əl işlərinin sərgisi



səh. 3

### Xarici ölkələrin ekspertləri Ağdam və Füzuli rayonlarında olublar

səh. 4



### Lənkəran teatrının "Casus"u Bakıya gəlir

səh. 4

# Ulu öndərin anım gününə həsr edilmiş gecə

Dekabrın 8-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Ulu öndər Heydər Əliyevin anım gününə (12 dekabr) həsr olunmuş tədbir keçirildi.



Anım tədbiri Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Əməkdar artist Aybəniz Haşımovanın rəhbəri olduğu "Sənət" Akademiyasının təşkilatçılığı ilə gerçəkləşdi.

Tədbirdə Baş İdarənin rəisi İbrahim Əliyev, mədəniyyət və incəsənət nümayəndələri, C.Naxçıvanski adına Hərbi liseyin kursantları və digər qonaqlar iştirak edirdilər.

İlk olaraq "Sənət" Akademiyasının şagirdləri Solmaz İsmayılzadə, İlkin Əzizov, Mələk Məmmədova, Nihad Yusifzadə, Emin Nəsibli və Fərqanə Məmmədovanın ifasında səhnəcik nümayiş etdirildi.

Ümummilli liderin vaxtilə bir bəndini söylədiyi Xalq şairi Səməd Vurğunun məşhur "Azərbaycan" şeirinin videosu nümayiş olunduqdan sonra Dövlət himni səsləndirildi.

Gecədə, həmçinin Əməkdar artist Aybəniz Haşımova, 5 nömrəli Uşaq-gənclər inkişaf mərkəzinin rəqs ansamblı (bədii rəhbər: Xalq artisti Cəmilə Bayramova), "Sənət" Akademiyasının tələbələri Əhməd Məmmədov, Milana Nəbiyeva, Davud Nəsirli, Xədicə Rəşidli, Həsən Əliyev, Rəhimə Yusifova, Hikmət Qasımov, Yusif İbrahimov, Rişad Heydərov və Sultanamib Fərhadov çıxış etdilər.

Proqramda "Xalq Heydər söyləyəcək", "Azərbaycan", "Ey vətən", "Gözəlim sənsən", "Küçələrə su səpmişəm", "Alagöz", "Odlar Yurdu", "Vətəndən pay olmayır" və s. mahnılar səsləndirildi.

Gecə boyunca ekranda Ulu öndər Heydər Əliyevin və ömürgün yoldaşı akademik Zərifə Əliyevanın həyat və fəaliyyəti haqqında məlumatlar, Prezident İlham Əliyevin Şuşanın işğaldan azad olunduğu gün xalqa müraciətinin videosu nümayiş etdirildi.

**Nurəddin**

# CNN kanalında Azərbaycan mədəniyyətinin təbliği davam etdiriləcək

Mədəniyyət naziri Anar Kərimov dekabrın 7-də ABŞ-nin CNN telekanalının ölkəmizdə səfərdə olan regionlar üzrə nümayəndəsi İmran Əhməd və sosial şəbəkə hesabları üzrə direktoru Zara Drissi qəbul edib.



CNN-in nümayəndələri Mədəniyyət Nazirliyi ilə əməkdaşlıqdan məmnunluqlarını ifadə edərək, bundan sonra da bu istiqamətdə yeni layihələrin reallaşacağını vurğulayıblar.

Anar Kərimov CNN əməkdaşlarına Azərbaycan mədəniyyətinin tanıdılması və təbliğinə verdikləri töhfələrə görə təşəkkürünü bildirib. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY tərəfindən Azərbaycanın Şuşa şəhərinin 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edildiyini diqqətə çatdıran nazir qədim şəhərimizin tarixi-mədəni irsinin lentə alınıb nümayiş etdirilməsinin əhəmiyyətini qeyd edib. UNESCO-nun "Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs üzrə Siyahı"sında yer alan Qarabağ atüstü oyun ənənəsi – çövkənlə bağlı təbliğat materiallarının geniş ictimaiyyətə çatdırılmasının da vacibliyi vurğulanıb.

Qeyd olunub ki, Azərbaycanın tarixi-mədəni dəyərlərinin beynəlxalq səviyyədə işıqlandırılması məqsədilə CNN kanalı ilə Mədəniyyət Nazirliyi arasında əməkdaşlıq mövcuddur. Bu əməkdaşlıq çərçivəsində bu il Azərbaycan xalçaları, muğam və musiqi sənətimizlə bağlı silsilə videoçarxlar telekanalda yayımlanıb.

Görüşdə qarşıdakı illərdə Azərbaycan mədəniyyətinin təbliği ilə bağlı müzakirə aparılıb.

# Bakıda turizm sammiti keçirilib




Dekabrın 8-də Bakı Konqres Mərkəzində "Azərbaycan Turizm Sammiti – 2022" keçirilib.

Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə gerçəkləşən tədbirdə turizm sənayesinin təmsilçiləri, dövlət və özəl sektor nümayəndələri iştirak ediblər.

Tədbirdə turizm sahəsində inkişaf tendensiyaları, o cümlədən marketinq, regional inkişaf və turizm siyasəti məsələləri müzakirə edilib.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev sammitin əhəmiyyətindən danışıb və 2022-ci ildə turizm sektorunda əldə olunmuş nailiyyətlərdən söz açıb.

Sammitin panel iclaslarında "Turizm sektorunda dövlət siyasəti və bazar tənzimlənməsi: Azərbaycanda əsas istiqamətlər və yanaşmalar", "Turizm, mədəni irs və yaradıcı sənaye: yeni çağırışlar", "Əsas hədəf bazarlarında marketinq fəaliyyəti" və "Turizm sənayesində mövcud vəziyyət və planlar" mövzularında müzakirələr aparılıb.

# Mədəni sərvətlərin qorunmasında UNESCO necə rol oynayır?

## "Bu təşkilatdan qəbul etdiyi konvensiyalara sadiqlik nümayiş etdirməsini gözləyirik"

*əvvəli səh. 1-də*

Anar Kərimov maddi mədəniyyət abidələri ilə bağlı işğaldan azad olunmuş ərazilərdə aparılan monitorinqdən də bəhs edib. Bildirib ki, indiyədək aparılan monitorinq 864 mədəniyyət obyektini və 411 abidəni əhatə edib. Monitorinqlər zamanı bir çox abidələrin işğal zamanı qəsdən dağıdıldığı, mənimsənildiyi, abidələrdən hərbi məqsədlər üçün istifadə edildiyi aşkarlanıb.

Nazir vurğulayıb ki, UNESCO mədəni sərvətlərin qorunması ilə özünün müvafiq konvensiyalarına sadiqliyini nümayiş etdirməlidir. Təəssüf ki, Azərbaycanın işğal dövründə dağıdılıb talan edilən mədəni irsinə münasibətdə bunu görmürük.

Xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev çıxışı zamanı 2022-ci ildə Azərbaycan Respublikasının UNESCO-ya üzvlüyünün 30 ilinin tamam olduğunu xatırladıb, Azərbaycanın UNESCO-nun etibarlı tərəfdaşı və fəal üzvü olduğunu qeyd edib. Mahmud Məmməd-Quliyev bu günədək UNESCO-ya Azərbaycan tərəfindən ünvanlanmış çoxsaylı müraciətlərə baxmayaraq, işğaldan azad edilmiş ərazilərə hələ də missiya göndərilmədiyini diqqətə çatdırıb. Nazir müavini xarici ekspert və diplomatların iştirak etdiyi bu konfransda texniki missiyanın göndərilməsi üçün UNESCO-ya çağırış edib.






Azərbaycan Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev turizmin inkişafında mədəni irsin əvəzedilməz rol oynadığını nəzərə çatdırıb. O, Dövlət Turizm Agentliyinin təşəbbüs və dəstəyi ilə ICOMOS-un (UNESCO yanında Abidələr və Tarixi Yerlər üzrə Beynəlxalq Komissiya) Azərbaycan Milli Komitəsinin təsis edildiyini bildirib. O, ölkədə turizm baxımından əhəmiyyətli 8 qoruğun idarəedilməsi siyasətində Dünya İrs Konvensiyasının müddəalarının da əks olunduğunu deyib.

ICOMOS-un vitse-prezidenti xanım Zeynəb Gül Ünal çıxışında dünyada baş verən münaqişələr fonunda mədəni abidələrin dağıntılara məruz qaldığını vurğulayaraq onların qorunmasında 1954-cü il və 1972-ci il konvensiyalarının icrasının vacibliyini xatırladıb.

UNESCO üzrə Türkiyə Milli Komissiyasının sədri Öcal Oğuz TÜRKSOY-a üzv olan ölkələrin qeyri-maddi mədəni irsin qorunmasında birgə həyata keçirdiyi tədbirlərdən bəhs edib, Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçilməsi münasibətilə Azərbaycanı təbrik edib.

Açılış mərasimindən sonra konfrans panel sessiyalarla davam edib.

ADA Universiteti İnkişaf və Diplomatiya İnstitutunun direktor müavini Aygün Hacıyevanın moderatorluğu ilə keçirilən sessiyada 1954-cü il Haaqa Konvensiyasının və protokollarının tətbiqindəki müsbət təcrübələr və çətinliklər müzakirə olunub.

Milli Xalça Muzeyinin direktoru, ICOM Azərbaycan Milli Komitəsinin rəhbəri Şirin Məlikovanın moderatorluğu ilə təşkil olunan paneldə isə UNESCO konvensiyalarının muzeylərin işinin təkmilləşdirilməsi istiqamətində tətbiqindən bəhs edilib.

ICOMOS Azərbaycan Milli Komitəsinin prezidenti Sədaqət Davudovanın moderatorluğu ilə keçirilən son sessiyada Dünya İrs Konvensiyasının 50 illiyi ərəfəsində görüləcək yenidənqurma məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Konfransın yekunu olaraq mədəni irsin mühafizəsi sahəsində mövcud beynəlxalq sənədlərin tətbiqinin təkmilləşdirilməsi istiqamətində müvafiq tövsiyə və təkliflər paketinin hazırlanaraq UNESCO-ya təqdim olunması nəzərdə tutulur.

# Mədəniyyət paytaxtımızı daha geniş təbliğ etmək üçün...

## "Şuşa yaradıcılıq emalatxanası" layihəsinə yekun vuruldu

*əvvəli səh. 1-də*

İlk olaraq qonaqlar mərkəzin foyesində emalatxana iştirakçılarının yaratdıqları bədii yaradıcılıq nümunələri ilə tanış oldular. Burada sənətkarların Şuşadan ilhamlanaraq ərsəyə gətirdiyi əl işləri sərgilənirdi. Nəzər Əliyevin misgərlik, Şəhla Əsgərovanın bədii tikmə, Humay Abdullayevanın keramika, Tofiq Əliyevin oyma, Sevinc Əliyevanın ebru və Orxan Əzimin fotoqrafiya işləri böyük maraqla qarşılandı.

Sonra tədbir mərkəzin zalında davam etdi. Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Əməkdar incəsənət xadimi, musiqişünas, layihənin iştirakçısı Zümrüd Dadaşzadə emalatxananın əhəmiyyətindən söz açdı. Bildirdi ki, layihənin məqsədi tarixi və əzəli torpaqlarımızda otuz ilə yaxın sürən işğal dövründə törədilmiş barbarlıq, dağıdılmış abidələrimiz haqqında ictimaiyyəti daha geniş məlumatlandırmaq, mədəni irsimiz, zəngin tariximiz və ənənələrimizi layihəyə qatılan yaradıcı insanların təqdim edəcəyi əsərlər vasitəsilə təbliğ etməkdir.

Emalatxana iştirakçılarının ərsəyə gətirdiyi əsərləri yüksək dəyərləndirən Z.Dadaşzadə Türkiyədən olan blogerlərin də dolğun reportajlar etdiyini bildirdi: "Bu gün Şuşa bərpa olunur, şəhər göz önündə dirçəlir. Biz



səfərimiz zamanı şəhərin dağıntılarını da, bərpasını da eyni anda izləyirdik və bu həm kədərli, həm də qürurverici idi. Şuşada xüsusi bir gözəllik var. Bülbülün evi təmir edilib, Üzeyir bəyin evi təmir prosesindədir. Biz Şuşanı gəzərkən dahiləri yad edirdik. İnanırıq ki, Şuşa haqqında hələ neçə-neçə əsərlər yaranacaq. Bunlar həm lirik, həm də optimist ruhlu əsərlər olacaq. Layihənin təşkilinə görə Mədəniyyət Nazirliyinə bütün iştirakçılar adından təşəkkür edirəm".

Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Vüqar Məmmədov çıxışında təqdim olunan əsərləri gördükdən, dinlədikdən sonra hər kəsin muğam-sənət beşiyimiz Şuşaya bir qədər də fərqli gözlə baxacağına əminliyini qeyd etdi: "Çünki bu əsərlər gözəl Şuşa haqqında həzin, isti və fərqli təəssüratlar yaradır. Sənət adamları Şuşaya öz duyğuları və hissləri ilə yanaşıblar. İnanıram ki, layihənin davamı olacaq. Bütün iştirakçılara uğurlar arzulayıram".

Vüqar Məmmədov sonra bu gün 65 yaşını qeyd edən bəstəkar, Xalq artisti, Üzeyir Hacıbəylinin Ev-Muzeyinin direktoru Sərdar Fərəcovu yubileyi münasibətilə təbrik etdi, cansağlığı və yaradıcılıq uğurları arzuladı.

Sonda emalatxana iştirakçılarının Şuşada olarkən lentə aldıqları videoçarx, türk youtuber Kerem Gök tərəfindən hazırlanan videoreportaj nümayiş olundu. Bəstəkarlar Ceyhun Allahverdinin "Vida adajiosu", Vüqar Məmmədzadənin "Adajio", Xalq artisti Sərdar Fərəcovun "Elegiya", Könül Hüseynovanın "Qoruyaq dünyamızı" əsərləri Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri (bədii rəhbər və baş dirijor: Xalq artisti Fəxrəddin Kərimov) tərəfindən ifa edildi.

Həmçinin Xalq artisti Salman Qəmbərov və ifaçı Firudin Həmidovun caz kompozisiyası da maraqla qarşılandı.

Tədbir gənc şair Rəvan Cavidin "Şuşaya" şeiri və xanəndələrin ifasında "Qarabağ şikəstəsi"nin səslənməsi ilə başa çatdı.

**Lalə Azəri**

# Bursada "Şuşa günləri"

*əvvəli səh. 1-də*

Çıxışçılar bu missiyanı Bursadan qəbul edəcək Şuşa haqqında da söz açıblar. Bildirilib ki, Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhəri 30 illik işğaldan sonra 44 günlük Vətən müharibəsi nəticəsində şanlı Zəfərlə azad edilib. İşğal dövründə ermənilər tərəfindən Şuşanın mədəni-mənəvi irsi dağıdılıb, şəhər viran qoyulub. Hazırda Azərbaycan dövləti bu ərazilərdə bərpa-yenidənqurma işləri aparır. Bildirilib ki, Azərbaycan xalqı üçün xüsusi məna kəsb edən Şuşanın "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilməsi, eyni zamanda türk xalqları arasında birlik və bərabərliyin daha da möhkəmləndirilməsi, əməkdaşlığın inkişaf etdirilməsi üçün mühüm əhəmiyyət daşıyır.

Sonra Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən "Şuşa günləri"nin təşkilində əməyi olanlara təşəkkürnamələr və plaketlər təqdim edilib.

Mərasimdə Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, ölkəmizin İstanbuldakı baş konsulu Nərminə Mustafayeva, dövlət qurumlarının nümayəndələri və digərləri iştirak ediblər.

***

Bursa şəhərində "Şuşa günləri" çərçivəsində "Şuşanın tək incisi" bədii-sənədli filminin təqdimatı olub. Film bu il 190 illiyi qeyd olunan Azərbaycanın görkəmli şairəsi Xurşidbanu Natəvanın həyat və yaradıcılığına həsr edilib. Ekran əsərində Şuşanın tarixi, şəhərin işğal dövründə dağıdılması, şanlı Zəfərimizdən sonra Qarabağda aparılan bərpa-yenidənqurma işləri haqqında da məlumat verilir.

Filmin ideya müəllifi Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, rejissoru Zəhra Quliyeva, ssenari müəllifi Ülviyyə Heydərovadır.




Natəvan obrazını Xalq artisti Mehriban Zəkinin canlandırdığı filmin çəkilişləri Xan qızının ocağında – Şuşada ermənilər tərəfindən viran qoyulan evində aparılıb.

Sonra Azərbaycan muğam qrupunun müşayiəti ilə Xalq artisti Mehriban Zəkinin ifasında Natəvanın şeirləri səsləndirilib.

Mərasimdən sonra Azərbaycan nümayəndə heyətinin Bursa Böyükşəhər Bələdiyyəsinin başqanı Alinur Aktaş və Bursa valisi Yakup Canbolat ilə görüşləri keçirilib.

***

"Şuşa günləri" çərçivəsində məşhur fotoqraf Reza Deqatinin Qarabağ mədəniyyətini əks etdirən "Azərbaycanın incisi Şuşa" fotosərgisi də açılıb. Sərgidə fotoqrafın Şuşada işğaldan əvvəl və sonra çəkdiyi fotoşəkillər təqdim edilir. 1992-ci ilin aprelində şəhərin erməni qüvvələrinin əlinə keçməsinə bir neçə həftə qalmış Şuşada fotolar çəkən R.Deqati 30 ildən sonra qayıdaraq şəhəri yenidən kameranın yaddaşına köçürüb.

# Anar Kərimov Özbəkistan nümayəndə heyətini qəbul edib

Mədəniyyət naziri Anar Kərimov dekabrın 7-də ölkəmizdə səfərdə olan Özbəkistan kino nümayəndələrindən ibarət heyəti qəbul edib.

Nümayəndə heyəti 7-9 dekabr tarixlərində Bakıda keçirilən Özbəkistan kinosu günləri ilə bağlı ölkəmizə gəlib.

Qonaqları salamlayan nazir iki qardaş ölkə arasındakı mədəni və dostluq əlaqələrindən söz açıb. Bildirib ki, son illərdə türk dövlətləri ölkə rəhbərləri səviyyəsində bir-biri ilə daha sıx əlaqələr qurur. Bu da dərinləşən əməkdaşlığa, xalqlarımızın daha da yaxınlaşmasına öz töhfəsini verir. Nazir deyib ki, Azərbaycan-Özbəkistan əlaqələrinin bugünkü səviyyəsi böyük məmnunluq doğurur. Gerçəkləşən birgə tədbirlər, incəsənət ustalarının səfərləri bunun bariz nümunəsidir.



Nümayəndə heyətinin rəhbəri, Özbəkistan Respublikası Kino Agentliyinin baş direktoru Firdavs Abdulxaliqov səmimi qəbula görə Anar Kərimova təşəkkür edib. O, Azərbaycan Dövlət Film Fondu ilə tanış olduqlarını və burada çoxlu sayda özbək filmlərinin də qorunmasından məmnunluqlarını bildirib.

F.Abdulxaliqov iki ölkə arasında kino sahəsində təcrübə mübadiləsi və Azərbaycan-Özbəkistan-Türkiyə üçtərəfli film layihəsinin reallaşmasının mümkünlüyünü vurğulayıb.

Anar Kərimov III Dədə Qorqud Türk Dünyası Film Festivalının 2023-cü ildə Şuşada keçiriləcəyini diqqətə çatdırıb, Özbəkistanın da bu festivala qatılmasından məmnun olacaqlarını bildirib.

Söhbət zamanı Daşkənd Film Festivalında Azərbaycan kino xadimlərinin iştirakı, eləcə də gənc kinematoqrafçılar arasında əlaqələrin qurulmasından söz açılıb.

Görüşdə özbək və Azərbaycan ədəbiyyatı, mədəniyyəti mövzusunda müzakirə aparılıb, hər iki xalqın tanınmış yaradıcı şəxsiyyətlərinin, ortaq dəyərlərinin birgə təbliği ilə bağlı layihələrin reallaşdırmasının əhəmiyyəti qeyd olunub.




# “Mədəniyyətlərimizi bölüşmək çox vacibdir”

## Bakıda Özbəkistan kinosu günləri keçirilir

əvvəli səh. 1-də

Cəmil Quliyev qeyd etdi ki, onilliklər ərzində Azərbaycan kinematoqrafçıları özbək həmkarları ilə birlikdə çalışıblar. Azərbaycan filmlərində özbək aktyorlar çəkilib. “Azərbaycanfilm”də lentə alınan “Görüş”, “Qızıl qaz” və s. filmlərdə özbək aktyorlar rol alıb. Bütün bunlar kino tariximizin qızıl səhifələrində qalır və inanırıq ki, gələcəkdə də iki qardaş xalqın kinematoqrafçıları birgə film istehsalında yaxından əməkdaşlıq edəcəklər”.

Cəmil Quliyev Azərbaycan Dövlət Film Fondunda 50 özbək filminin kinolentdə və özbək kinosuna dair 3 mindən artıq fotonun qorunub saxlanıldığını da diqqətə çatdırıb.

Mədəniyyət Nazirliyi Audiovizual və interaktiv media şöbəsinin müdiri Rüfət Həsənov bu ilin sentyabrında keçirilən Daşkənd Beynəlxalq Film Festivalı çərçivəsində Özbəkistan paytaxtında və Buxara şəhərində Azərbaycan kinosu günlərinin təşkil olunduğunu deyib. Bildirib ki, Azərbaycan kinematoqrafçıları bu tədbirlərdə böyük şövqlə iştirak ediblər, filmlərimiz maraqla qarşılanıb.

Özbəkistan Respublikası Kino Agentliyinin baş direktoru Firdavs Abdulxaliqov çıxışı zamanı iki ölkə arasında mədəni əməkdaşlığın gücləndirilməsi naminə bu cür tədbirlərin keçirilməsinin önəmli olduğunu bildirib. Deyib ki, gündən-günə inkişaf edən, müasirləşən Azərbaycanda Özbəkistan kinosu günlərinin keçirilməsi əlamətdar hadisədir. Baş direktor Özbəkistan və Azərbaycanın iştirakı ilə məşhur lətifə qəhrəmanı Molla (Xoca) Nəsrəddin haqqında birgə filmin çəkilişinin reallaşacağını da diqqətə çatdırıb.

Nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə təşəkkür edən F.Abdulxaliqov özbək filmlərinin azərbaycanlı kinosevərlər tərəfindən maraqla qarşılanacağına ümid etdiyini vurğulayıb.

Azərbaycanlı rejissor Eldar Məmmədov 40 ildir Özbəkistanda yaşadığını bildirib. Qeyd edib ki, Özbəkistanda Azərbaycana böyük sevgi və hörmət var: “Bu, bizim mədəniyyət və incəsənətimizdə də açıq görünür. Bu gün açılış mərasimində nümayiş etdiriləcək “Əbədi dostluq və qardaşlıq” sənədli filmi Özbəkistanla Azərbaycan arasında münasibətlərə həsr olunub. Xalqlarımız bir-birinə mənəvi tellərlə bağlanıblar. Bu gün Türkiyə ilə Azərbaycanı mənən birləşdirən “Bir millət, iki dövlət” sözü Özbəkistan və Azərbaycan xalqları üçün də keçərlidir”.

Aktrisa Lalə Eltoyeva, “Kino sənəti” portalının baş redaktoru Şakirə Həmro çıxışlarında Azərbaycanda olmaqlarından məmnunluqlarını ifadə edib və iki ölkə arasında olan sənət mübadiləsindən söz açıblar.

Çıxışlardan sonra “Əbədi dostluq və qardaşlıq” filmi nümayiş etdirilib. Filmdə Azərbaycanla Özbəkistan arasında siyasi, mədəni əlaqələrə nəzər salınır, tarixi faktlar və kadrlar diqqətə çatdırılır. Filmin ssenari müəllifi rejissor Eldar Məmmədovdur.

Qeyd edək ki, Bakıda Özbəkistan kinosu günləri çərçivəsində dekabrın 8-də Nizami Kino Mərkəzində “Maqsud Şeyxzadə” və “Reys 101” filmləri nümayiş olunub. Dekabrın 9-da isə “Baron – 2” və “Qadın taleyi” adlı ekran əsərləri təqdim olunacaq.

**Lalə**

# Özbək kinematoqrafçıları Dövlət Film Fondunda

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 7-9 dekabr tarixlərində ölkəmizdə Özbəkistan kinosu günləri keçirilir.

Dekabrın 7-də qardaş ölkənin nümayəndə heyəti Azərbaycan Dövlət Film Fondunu ziyarət edib. Ziyarət zamanı fondun yaranması və fəaliyyəti, burada qorunan kinolentlər və s. haqqında qonaqlara ətraflı məlumat verilib.

Sonra Dövlət Film Fondunun zalında “Fəridənin iki min mahnısı” özbək filmi nümayiş etdirilib.

Filmin nümayişindən əvvəl Özbəkistan Respublikası Kino Agentliyinin şöbə müdiri Firuzə Nadirova, agentliyin Bədii şurasının üzvü Rüstəm Cabbarov və “Kino sənəti” portalının baş redaktoru Şakirə Həmro çıxış edərək ekran əsəri haqqında məlumat vetiblər.

Bildirilib ki, film 2020-ci ildə “Özbəkkino” Milli Agentliyinin sifarişi ilə “Fox Music Cinema” kino şirkəti tərəfindən çəkilib. Özbəkistan ssenaristi və rejissoru Elkin Tuyçiyevin lentə aldığı ekran əsəri ötən əsrin əvvəllərində Türküstanda bir ailənin timsalında baş verən siyasi hadisələrdən bəhs edir.

Çıxışlardan sonra film nümayiş olunub. “Azərbaycanfilm” kinostudiyasının direktoru Nazim Hüseynov, Əməkdar incəsənət xadimi Ayaz Salayev, Özbəkistandan gələn heyət və digər qonaqlar izləyiblər.



Film 2020-ci ildə MDB ölkələrinin iştirakı ilə keçirilən “Moskva premyerası” kinofestivalında “Qran pri” mükafatına layiq görülüb. Ekran işi, həmçinin 2021-ci ildə “Oskar” mükafatının “Ən yaxşı xarici film” nominasiyası üzrə müsabiqəsində iştirak edib.

Xatırladaq ki, bu ilin 13-18 sentyabr tarixlərində “İpək Yolunun dürdanəsi” XIV Daşkənd Beynəlxalq Film Festivalı çərçivəsində Özbəkistan paytaxtında və Buxara şəhərində Azərbaycan kinosu günləri təşkil edilmişdi.

**Nurəddin**



# “İstedad sərhədsizdir”

## Xalça Muzeyində fiziki imkanları məhdud şəxslərin əl işlərinin satış-sərgisi

Azərbaycan Milli Xalça Muzeyində “İstedad sərhədsizdir” adlı fiziki imkanları məhdud şəxslərin əl işlərindən ibarət satış-sərgi keçirildi.

6-8 dekabr tarixlərini əhatə edən sərgi Mədəniyyət Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi (MEMİM) tərəfindən əlilliyi olan istedadlı şəxslərin fəaliyyətini ictimaiyyətə təqdim etmək, əl işlərinin satışına dəstək göstərmək məqsədilə təşkil olunmuşdu.

Milli Xalça Muzeyinin direktoru Əməkdar mədəniyyət işçisi Şirin Məlikova açılış nitqində muzeyin bu sahədə gördüyü işlərdən bəhs etdi. Bildirdi ki, görmə qabiliyyəti məhdud insanlar üçün muzeydə qorunan eksponatlar barədə mətnlər Brayl əlifbası ilə təqdim olunur. Muzeydə, həmçinin xovlu və xovsuz texnologiyanın birlikdə tətbiqi ilə üzərində həndəsi və nəbati elementlər, zoomorf və antropomorf təsvirlər olan kiçikölçülü xalça nümunələri də nümayiş etdirilir.

Əlil arabalarının ekspozisiyada maneəsiz hərəkəti üçün lazımi şəraitin yaradıldığını bildirən direktor qeyd etdi ki, 2019-cu ilin əvvəlindən muzeyin birinci mərtəbəsində təqdim edilən eksponatlarla taktil üsulla (toxunaraq hissetmə), həmçinin Azərbaycan və ingilis dillərində xüsusi audioyazı və Brayl şrifti ilə hazırlanan yazılı materiallar vasitəsilə tanış olmaq mümkündür.

MEMİM-in direktoru Səadət Xələfbəyli bildirdi ki, ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan insanların ictimai həyata inteqrasiya olunması üçün dövlət tərəfindən xüsusi diqqət və qayğı göstərilir. MEMİM də bu istiqamətdə bir sıra addımlar atır. Bugünkü sərgi də həyata keçirilən işlərin davamıdır. Vurğulandı ki, Heydər Əliyev Fondunun dəstəyi ilə əlillər üçün xüsusi mərkəzlər tikilir, fiziki məhdudiyyətli vətəndaşların qabiliyyətini, bacarığını üzə çıxarmaqla onların əmək bazarında yer tutmalarına köməklik göstərilir.

Satış-sərgidə fiziki məhdudiyyətli şəxslər tərəfindən hazırlanmış suvenirlər, ağac üzərində oyma, xalçaçılıq, tikmə və toxuma nümunələri, rəsm, bəzək əşyaları, aksesuarlar və s. nümayiş olundu. Layihə çərçivəsində ustad dərsləri və digər proqramlar da təşkil ediləcək.

Azərbaycan Əlil Təşkilatları İttifaqının prezidenti Davud Rəhimli, “Əlilliyi Olan Şəxslərə Sosial Dəstək” İctimai Birliyinin sədri Təranə Musayeva, “Əlil Qadınlar Cəmiyyəti” İB-nin sədri Məhluqə Rəhimova, “Regional Hüquqi və İqtisadi Maarifləndirmə” İB-nin rəhbəri Arzu Bağırova və digərləri də çıxış etdilər. Bildirildi ki, ölkədə fiziki məhdudiyyətli insanların ayrı-seçkiliyə məruz qalmamaları üçün maarifləndirmə işləri aparılır. Xüsusi qayğıya ehtiyacı olan insanların digər insanlardan fərqlənməməsini, cəmiyyətin bərabər hüquqlu fərdləri kimi yaşamasını, cəmiyyətə inteqrasiya olunmalarını təmin etmək, komplekslərdən qurtulmalarına çalışmaq hər birimizin borcudur. Bunun üçün mütəmadi olaraq onlarla ünsiyyətdə olmağa, mənəvi yardım göstərməyə çalışmaq lazımdır.

Tədbirdə sənətkarlar tərəfindən ustad dərsləri və xüsusi internat məktəbi şagirdlərinin çıxışlarından ibarət konsert proqramı təşkil edildi. Fiziki məhdudiyyətli şəxslərin fəaliyyətini əks etdirən videomateriallar maraqla qarşılandı.

**L.Azəri**

# Moskvada Bülbülün 125 illiyi qeyd olunub

## Mixail Brızqalov: “Bülbülün adı Azərbaycan və sovet musiqi tarixinə qızıl hərflərlə yazılıb”

əvvəli səh. 1-də

Polad Bülbüloğlu deyib: “Xüsusi vurğulamaq istərdim ki, Azərbaycanın Ümummilli lideri Heydər Əliyev 1997-ci ildə Bülbülün anadan olmasının 100 illiyi münasibətilə fərman imzalayıb, həmin fərmanda vokalçıların Bülbül adına müsabiqəsinin təşkil olunması barədə ayrıca bənd olub. O vaxtdan 8 belə müsabiqə keçirilib, həmin müsabiqələrin 4-nə görkəmli müğənni İrina Arxipova rəhbərlik edib. Fərəhlə qeyd etməliyəm ki, bu müsabiqədən uğurla keçmiş müğənnilər hazırda Azərbaycan incəsənətini dünyanın bir çox səhnələrində təmsil edirlər. Elçin Əzizov, Yusif Eyvazov, Dinara Əliyeva və başqaları Bülbül adına müsabiqənin laureatları olublar”.



Səfir Bülbülün Bakıdakı və Şuşadakı ev-muzeyləri barədə də məlumat verib. Qeyd edib ki, 1981-ci ildə Bakıda, 1983-cü ildə isə Şuşada Bülbülün ev-muzeyləri açılıb. Şuşa şəhəri otuzillik işğaldan azad ediləndən sonra Şuşada, Bülbülün doğulduğu ev də bərpa edilib və yenidən ziyarətçilər üçün açıqdır.

P.Bülbüloğlu Rusiya Federasiyasının Mədəniyyət Nazirliyinə və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə bu gecənin təşkilinə göstərdikləri dəstəyə görə təşəkkürünü bildirib.

Rusiya Milli Musiqi Muzeyinin direktoru Mixail Brızqalov deyib: “Bülbülün anadan olmasının 125 illiyinə həsr edilmiş bugünkü sərgini açmaq bizim üçün böyük fərəh və şərəfdir. Bülbülün adı Azərbaycan və sovet musiqi tarixinə qızıl hərflərlə yazılıb. Azərbaycanda yeni vokal məktəbinin əsasını qoymuş Bülbül öz yaradıcılığında Avropa ənənələrinə uyğun Şərq vokal sənətini birləşdirən ilk müsəlman müğənni olub. Stalin mükafatına, iki dəfə Lenin ordeninə layiq görülüb”.

M.Brızqalov Bülbülün həyat və yaradıcılığı haqqında söhbət açaraq qeyd edib ki, bugünkü sərgidə Bülbülün şəxsi əşyaları, diplomları, mükafatları, konsertlərdə çıxışlarının və opera tamaşalarının proqramları nümayiş etdirilir. Sərginin eksponatları bu musiqiçinin yaradıcılıq yolunu, onun ictimai fəaliyyətini açıqlayır, ailə həyatının müəyyən məqamlarını əks etdirir, Azərbaycan musiqi mədəniyyətinin bu görkəmli xadiminin xatirəsi onun pərəstişkarlarının qəlbində yaşayır, yeni nəsil artistləri ruhlandırır.

Böyük müğənninin nəvəsi, dirijor Murtuza Bülbül sərginin hazırlanmasında əməyi olmuş insanların hamısına təşəkkürünü bildirib. O deyib: “Burada Azərbaycanın görkəmli opera müğənnisinin həyatının bütün mərhələləri əks olunub. Sərgidə onun ictimai xadim kimi işi də, bilavasitə səhnə fəaliyyəti də görünür. Belə bir nəslin nümayəndəsi olmağım mənim üçün böyük şərəfdir. Xoşbəxtəm ki, sərgi Moskvada – babamın tez-tez olduğu və mənim təhsil aldığım şəhərdə keçirilir”.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru Alla Bayramova, NTV telekanalının baş direktoru Timur Vaynşteyn və başqaları böyük müğənninin Azərbaycan və sovet musiqisi tarixində rolu barədə danışıblar.

Gecə konsert proqramı ilə davam edib. Azərbaycanın Əməkdar artistləri Elnarə Məmmədova, Anar Şuşalı, Təyyar Bayramov, Bülbül adına müsabiqənin laureatı Nigar Cəfərova məşhur vokalçının repertuarından əsərlər ifa ediblər. Konsert proqramı “Qarabağ şikəstəsi” ritmik muğamı ilə başa çatıb.

# “Dərələr”dən “Yavaş-yavaş”...

## Şövkət Ələkbərovanın 100 illiyinə həsr olunan musiqi axşamı

əvvəli səh. 1-də




Gecədə əvvəlcə Şövkət Ələkbərovanın ifasında “Şən Azərbaycan” mahnısının lent yazısı nümayiş olundu. Sonra Ş.Ələkbərova adına 20 nömrəli Musiqi məktəbinin şagirdləri Ümidvar İsmayılov C.Cahangirovun “Cənnətim Qarabağ”, Kənan Sultanov isə T.Quliyevin “Azərbaycan” mahnılarını ifa etdilər.

Əməkdar artistlər Zakir Əliyev, Nurlan Növrəsli, Nuriyyə Hüseynova, ifaçılar Nurlana Abdullayeva, Nurlan Əzizbəyli, Taleh Yahyayev, Nigar Cəlilova, Nəsimi Məmmədov, Aynur İsgəndərli, Vəfa Cəfərova, Cəlal Kərimov, Vəfa Vəzirova, Samir Piriyev, Talıb İsgəndərli, Aişən Eminli, həmçinin xanəndələr Kamilə Nəbiyeva, Rəvanə Qurbanova və Səbinə Ərəblinin ifasında musiqi nömrələri təqdim olundu.

Proqramda T.Quliyevin “İlk bahar”, “Axşam mahnısı”, “Gül oğlum”, “Sən mənimsən, mən sənin”, E.İbrahimovanın “Mən sənin yanına qışda gəlirdim”, T.Əhmədovun “Güldür məni”, E.Sabitoğlunun “Ağ çiçəyim”, “Dərələr”, “Azərbaycan”, H.Xanməmmədovun “Gözünə qurban”, R.Mirişlinin “Bir könül sındırmışam”, “Sənin vüqarın mənəm”, N.Qəmərlinskinin “Yavaş-yavaş”, C.Cahangirovun “Ana yurdum” və Qəmbər Hüseynlinin “Qoy dolanım başına mən” və s. mahnılar yer almışdı.

İfaçıları F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının instrumental heyəti (musiqi rəhbəri: Mahir Ordubadi) müşayiət edirdi. Bütün çıxışlar alqışlarla qarşılandı. Səsləndirilən nəğmələr Şövkət Ələkbərovanın bənzərsiz sənətinə və əziz xatirəsinə ehtiramın ifadəsi idi.

**N.Məmmədli**

№91 (1964)
9 dekabr 2022
www.medeniyyet.az

# Şuşa – abidələr məkanı

Ağdaş RMİ-nin tabeliyində fəaliyyət göstərən Göyçay rayon MKS-nin Mərkəzi Kitabxanasında "Ruhumun ünvanı Şuşa" adlı tədbir keçirilib.

***



Sumqayıt RMİ Sumqayıt Dövlət Rəsm Qalereyasında "Şuşa İli"nə həsr olunan "Uğurumuz" adlı sərgi təşkil edilib. Sərgidə "Uğur-ART" rəsm dərnəyi üzvlərinin əsərləri nümayiş olunub. Çıxış edənlər Zəfər salnaməsinin təbliğ olunmasında, gələcək nəsillərə çatdırılmasında incəsənətin rolundan danışıb, vətənpərvərlik mövzusunda keçirilən bu cür tədbirlərin əhəmiyyətini vurğulayıblar. "Uğur-ART" rəsm dərnəyinin rəhbəri Günel Qasımova dərnək üzvlərinin ərsəyə gətirdikləri şəhidlərin portretlərini ailə üzvlərinə təqdim edib. Tədbir bədii hissə ilə başa çatıb.

***

Ağstafa RMİ Tovuz Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları N.Tusi adına liseydə "Şuşa tarixi abidələr məkanıdır" mövzusunda tədbir keçirib. Şagirdlərə Şuşanın tarixi, mədəniyyət abidələri haqqında ətraflı məlumat verilib.

Qazax Rayon Mədəniyyət Mərkəzində filiallarla birgə "Şuşa mədəniyyətimizin beşiyidir" adlı tədbir təşkil edilib. Çıxışlarda Şuşada aparılan abadlıq-quruculuq işlərindən söz açılıb.

# Bərdədə "44 gün" sənədli filmi nümayiş olunub

Bərdə RMİ Bərdə Rayon Mədəniyyət Mərkəzində "44 gün" sənədli filminin təqdimatı olub. Tədbirdə şəhid ailələri, qazilər, təhsil və mədəniyyət işçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.



Əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Sənədli filmin müəllifi Günel Əliqızı və digər çıxış edənlər 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı şanlı Qələbədən, otuzillik erməni işğalına son qoyulmasından danışıblar. Bildirilib ki, şəhidlərin həyat və döyüş yolu haqqında filmləri nümayiş etdirməkdə məqsəd vətənpərvərliyin mənəvi dəyər olduğunu hər kəsə aşılamaq, bu dəyəri tərbiyə elementinə çevirmək, həmçinin gənc nəsildə vətənpərvərlik hisslərinin daha da artırılmasına nail olmaqdır.

Sonra "44 gün" filmi nümayiş olunub. Qəhrəman döyüşçülərimizdən bəhs edən film izləyicilərə duyğulu anlar yaşadıb.

# "Qarabağdan namə" Şirvanda

Sabirabad RMİ Şirvan Şəhər Mədəniyyət Mərkəzində Xalq yazıçısı İlyas Əfəndiyevin "Hökmdar və qızı" pyesinin motivləri əsasında hazırlanmış "Qarabağdan namə" adlı tamaşa nümayiş olunub.



Sabirabad RMİ-nin rəisi Fərid Qurbanzadə, Şirvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Aynur Fərzəliyeva, Şirvan şəhərində fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların əməkdaşları, ictimaiyyət nümayəndələri və şəhər ümumtəhsil məktəblərinin şagirdləri tamaşanı izləyiblər.

Səhnə əsərinin nümayişindən sonra Fərid Qurbanzadə çıxış edərək Qarabağın tarixinə həsr olunmuş silsilə tədbirlərin keçirilməsinin təqdirəlayiq hal olduğunu vurğulayıb, şanlı tariximizin təbliğində, gənc nəslin vətənpərvər ruhda yetişməsində bu cür layihələrin əhəmiyyətini qeyd edib.

Ssenari müəllifi və quruluşçu rejissoru Elşən İsmayıl olan tamaşada rolları Azər Həsənov, Firuzə Abbasova, Rasim Vəliyev, Rövşən Babayev, Vəkil Həsənov, Esmira Bəşirli, Zaur Kərimli, Dilarə İsmayıllı, Vüqar Hüseynli, Ədalət Əkbərov və Musa Cəfərzadə ifa ediblər.

# Ağsuda aşıq Mirzə Bilalın 150 illiyi qeyd edilib

İsmayıllı RMİ-nin əhatə etdiyi Ağsu şəhər Mədəniyyət evində Azərbaycan saz-söz sənətinin görkəmli nümayəndələrindən aşıq Mirzə Bilalın (1872-1937) 150 illiyinə həsr olunmuş "Sənətkar ömrü" adlı yubiley tədbiri keçirilib.




Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, Azərbaycan Aşıqlar Birliyinin sədri Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı, sənətkarın nəvəsi Babək Şəfi, idarə və təşkilatların əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mirzə Bilalın şeirləri və bəstələdiyi saz havaları tədbirdə çıxış edən aşıqların ifasında səsləndirilib, tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanıb.

İcra başçısı Rövşən Bağırov bildirib ki, aşıq Mirzə Bilal böyük bir ifaçılıq məktəbinin banisi olmaqla yanaşı, Azərbaycan Xalq Cümhuriyyətini fəal dəstəkləyənlərdən olub. O, 1937-ci ildə həbs olunub, "xalq düşməni" elan edilərək güllələnib.

Aşığın nəvəsi Babək Şəfi tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkür edib.

**Hazırladı: N.Məmmədli**

# Tarixlərə sığmayan dahi ömrü



Bölgələrdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində Ulu öndər Heydər Əliyevin vəfatının (12 dekabr) 19-cu ildönümü münasibətilə müxtəlif tədbirlər keçirilir, müdrik dövlət xadiminin dövlətimiz və xalqımız qarşısında misilsiz xidmətləri yada salınır.

Masallı Regional Mədəniyyət İdarəsi (RMİ) Masallı Rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və müasir Azərbaycan" mövzusunda tədbir keçirilib. Ümummilli liderin müstəqil Azərbaycanın qurulması və dövlətçilik ənənələrinin qorunmasındakı xidmətlərindən söz açılıb. Ulu öndərin həyat və fəaliyyətinə həsr olunmuş sənədli film nümayiş etdirilib.

Masallı Tarix-Diyarşünaslıq Muzeyində "Dahi şəxsiyyət" mövzusunda tarix dərsi keçirilib. Dərsdə şəhid Əfqan Mirzəyev adına Qızılavar kənd tam orta məktəbinin şagirdləri iştirak ediblər.

***

Şəki RMİ Zaqatala Rayon Heydər Əliyev Mərkəzi və İsmayıl Səmədov adına şəhər 5 saylı tam orta məktəbin birgə təşkilatçılığı ilə "Tarixdə iz qoyan dahi şəxsiyyət" adlı tədbir keçirilib. Çıxış edənlər həyatını Vətəninə həsr edən böyük şəxsiyyətin əziz xatirəsinin xalqımızın qəlbində əbədi yaşayacağını vurğulayıblar. Şagirdlər Heydər Əliyevə həsr olunmuş şeirlər söyləyiblər.

***



Ağcabədi RMİ Ağcabədi Rayon Heydər Əliyev Mərkəzində "Tarixlərə sığmayan ömür" adlı sərgi açılıb. Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən, eləcə də dahi şəxsiyyətin fəaliyyəti dövründə respublikamızın ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatındakı hadisələri əks etdirən kitab və jurnallardan ibarət sərgi dekabrın sonunadək davam edəcək.

***



Gəncə RMİ Gəncə şəhər MKS-nin 16 nömrəli kitabxana filialında "Heydər Əliyevin ideyaları Azərbaycan xalqını Zəfərə qovuşdurdu" mövzusunda tədbir keçirilib. Ulu öndərə həsr olunmuş "Qüdrətli dövlət quruculuğunun banisi" adlı sərgi nümayiş etdirilib.

***

Ağstafa RMİ Qazax Rayon Heydər Əliyev Mərkəzi və rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev – Azərbaycan mədəniyyətinin hamisi" mövzusunda tədbir keçirilib. Çıxış edənlər Heydər Əliyevin uğurlu siyasəti nəticəsində ölkəmizin keçdiyi inkişaf yolundan, mədəniyyət sahəsinə göstərdiyi diqqət və qayğıdan danışıblar. Sonra tədbir iştirakçıları "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" filmini izləyiblər.

# Xarici ölkələrin ekspertləri Ağdam və Füzulidə olublar



Xəbər verdiyimiz kimi, dekabrın 8-də Bakıda "Mədəni sərvətlərin qorunmasında UNESCO Konvensiyalarının rolu və onların tətbiqinin təkmilləşdirilməsinin aspektləri" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

Konfrans öncəsi, dekabrın 7-də ICOMOS (UNESCO yanında Abidələr və Tarixi Yerlər üzrə Beynəlxalq Komissiya) rəhbərliyinin də daxil olduğu nümayəndə heyəti Ağdam və Füzuli rayonlarında olub.

Qonaqlar ilk olaraq işğaldan azad edilmiş Ağdam şəhərinə gəliblər. Onlara Ermənistan silahlı qüvvələrinin otuz ilə yaxın işğal zamanı burada törətdiyi vəhşiliklər, eləcə də Ağdam şəhəri işğaldan azad olunandan sonra Azərbaycan dövlətinin həyata keçirdiyi tikinti-quruculuq işləri barədə məlumat verilib.

Ağdamda işğal dövründə dağıdılmış yaşayış binalarına, mülki obyektlərə, dini, mədəni abidələrə, o cümlədən İmarət kompleksinə, Ağdam Cümə məscidinə, Dram teatrı binasının qalıqlarına və yerlə-yeksan edilmiş Şəhidlər xiyabanına baxış keçirilib. Ağdamda qəbiristanlıqlar da erməni vandalizminə məruz qalıb. Qonaqlara Ağdamın tarixi, onun vaxtilə Azərbaycanın ən abad şəhərlərindən biri olması barədə məlumat verilib.

Nümayəndə heyəti sonra Füzuli rayonuna yola düşüb. Qaraxanbəyli kəndinə gələn qonaqlara məlumat verilib ki, erməni vandalizmi nəticəsində kənd və buradakı məzarlıq məhv edilib. Erməni barbarlığına şahid olan qonaqlar burada aparılan minatəmizləmə işləri barədə də məlumatlandırılıblar.

Qonaqlar Merdinli kəndində də erməni barbarlığı ilə tanış olublar. Kənddə bütün evlər, sosial obyektlər dağıdılıb, təsərrüfatlar məhv edilib. Bildirilib ki, düşmən Merdinli kəndindəki məsciddən mal-qara tövləsi kimi istifadə etməklə azərbaycanlılara qarşı öz nifrətini nümayiş etdirib.

Daha sonra Füzuli şəhərinin mərkəzinə gələn qonaqlara ermənilərin işğal zamanı burada törətdikləri vəhşiliklər barədə məlumat verilib. Heyət Füzuli Beynəlxalq Hava Limanı ilə də tanış olub. Məlumat verilib ki, azad edilən torpaqlarda Azərbaycan dövləti tərəfindən irimiqyaslı layihələr həyata keçirilir. Belə layihələrdən biri də Füzuli, Zəngilan və Laçın hava limanlarının inşasıdır. 2021-ci ildə Füzuli və bu il isə Zəngilan hava limanları istifadəyə verilib.



Səfərdə ICOMOS-un vitse-prezidenti Zeynəb Gül Ünal, təşkilatın Suriya və İraqda mədəni irs üzrə işçi qrupunun sədri Samir Abdulac və Pakistan Milli Komitəsinin prezidenti Fauzia Husain Qureshi olmaqla – ümumilikdə 10 xarici ölkədən 20-yə yaxın ekspert iştirak edib.

Nümayəndə heyətini Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin böyük məsləhətçisi Araz İmanov, UNESCO üzrə Milli Komissiyanın, ICOMOS və ICOM-un Azərbaycan milli komitələrinin, ADA Universitetinin nümayəndələri müşayiət ediblər.

# Lənkəran teatrının "Casus"u Bakıya gəlir

Dekabrın 14-də Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) böyük səhnəsində Lənkəran Dövlət Dram Teatrı Xalq yazıçısı Kamal Abdullanın "Casus" pyesi əsasında hazırlanmış tamaşanı təqdim edəcək.

Rejissor Anar Babalının quruluş verdiyi tamaşa ATXİ-nin 125 illiyinə həsr olunmuş "Milli klassika" teatr festivalı çərçivəsində müsabiqədənkənar oynanılacaq.

Əsərdə Dədə Qorqud obrazı hadisələrin axarını istiqamətləndirir. O, Oğuz tayfaları arasında casusluq edənin kim olduğunu Qazan xana söyləyir. Həmçinin Boğazca Fatmanı da məsələdən xəbərdar edən özü olur. Dədə Qorqud Oğuzun təəssübkeşi kimi çıxış edir. Məhz bu səbəbdən casusun kim olduğunu söyləsə də, o biri yandan da məsələyə insani mövqedən yanaşır, Boğazca Fatmanı onun casus oğlunun başına gələcək fəlakətdən xəbərdar edir, ona ölümdən xilas yolunu göstərir.

Oğuz elinin bilicisi niyə onun elinə xəyanət edən bir casusu qoruyur? Bu sualların cavabı səhnə əsərində məlum olur.

# "Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası"nın təqdimatı

Dekabrın 8-də AMEA Dilçilik İnstitutunda "Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası"nın təqdimatı keçirilib.




Tədbirdə AMEA prezidenti akademik İsa Həbibbəyli, Dilçilik İnstitutunun baş direktoru professor Nadir Məmmədli, akademiklər Nizami Cəfərov, Rafael Hüseynov, dilçi mütəxəssislər iştirak ediblər.

AMEA prezidenti İsa Həbibbəyli kitabı Dilçilik İnstitutunun pasportu hesab etdiyini deyib: "Bu kitab Qarabağ və Şərqi Zəngəzur üçün Dilçilik İnstitutunun ucaltdığı elmi abidədir. Bu, Qarabağın Azərbaycanın əzəli və əbədi torpağı olmasının elmi sübutudur".

İsa Həbibbəyli kitabın müəllif və tərtibçisi Kifayət İmamquliyevanı və atlasın ərsəyə gəlməsində çalışmış heyətin AMEA-nın Fəxri fərmanı ilə təltif edildiyini diqqətə çatdırıb.

Dilçilik İnstitutunun baş direktoru Nadir Məmmədli qeyd edib ki, Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası dilçilik tarixində bir ilkdir. Bu sözlər 692 məntəqədən toplanıb kitab halına salınıb. Gələcəkdə Gürcüstan azərbaycanlıları, Dərbənd azərbaycanlıları, həmçinin Cənubi Azərbaycanda yaşayan soydaşlarımız üçün də bu cür dialektoloji atlasın hazırlanması nəzərdə tutulub.

# Qarabağın turizm destinasiyası kimi inkişaf etdirilməsi

## Kütləvi turist səfərləri Şuşadan başlayacaq

Qarşımızda duran ən mühüm vəzifələrdən biri Qarabağın turizm destinasiyası kimi inkişaf etdirilməsidir. Qəhrəman Ordumuzun döyüşərək geri qaytardığı torpaqlarda insanlarımızın yaşayışını təmin edəcəyik və turizm bu istiqamətdə aparıcı sahələrdən biri olacaq. Bu yöndə bir neçə layihənin icrasına başlanılıb.

Dövlət Turizm Agentliyinin (DTA) sədri Fuad Nağıyev bu fikirləri dekabrın 8-də Bakıda keçirilən "Azərbaycan Turizm Sammiti – 2022"də çıxış zamanı deyib.

DTA sədri diqqətə çatdırıb ki, bu ilin mart ayında Suqovuşanda Azərbaycan Prezidentinin iştirakı ilə turizm kompleksinin təməlqoyma tədbiri keçirilib. Eyni zamanda Ağdamda tarixi Şahbulaq qalası ətrafında turizm üzrə ilkin rekreasiya infrastrukturu qurulub. Şuşa şəhəri və Daşaltının, Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan, Qubadlı və Kəlbəcərin turizm imkanlarının qiymətləndirilməsi aparılıb və müvafiq inkişaf strategiyaları və fəaliyyət planlarına inteqrasiya edilib. Yaxın günlərdə Şuşaya turizm məqsədli səfərlərin təşkili üçün işlərimizi yekunlaşdırmaq üzrəyik. Vətəndaşlarımız digər yerlərə olduğu kimi, Şuşaya da turizm məqsədli səfərlər edə biləcəklər. Bir sözlə, Qarabağın turizm potensialının öyrənilməsi, reallaşdırılması, tanıdılması üçün çoxistiqamətli tədbirlər icra olunur.

DTA sədri bildirib ki, turizm sektorunun idarəetmə çərçivəsinin daha da təkmilləşdirilməsi üçün regional turizm şuralarının yaradılması nəzərdə tutulur. Turizm sektorunda tənzimlənməni inkişaf etdirmək üçün yerlərdə mehmanxanalara münasibətdə ulduz tələbi, turizm şirkətlərinə münasibətdə mülki məsuliyyət sığortası mexanizmi tətbiq olunacaq.

# Musiqiçi, bəstəkar, tədqiqatçı

## Sərdar Fərəcovun 65 illik yubileyinə

İstedadlı, xalqa xidmət edən insanların keçdiyi ömür yolu zəhmətsiz, maneəsiz, çətinliksiz ötüşmür. Lakin Tanrı tərəfindən verilən istedad və insani keyfiyyətlər bu çətinlikləri dəf etməyə kömək edir. Azərbaycan mədəniyyəti tarixində belə insanlar çoxdur. Nə yaxşı ki, belə şəxsiyyətlər haqqında təkcə keçmiş zamanda deyil, bugünkü günümüzdə də söz aça bilirik. Musiqiçi, bəstəkar, tədqiqatçı, Xalq artisti Sərdar Fərəcov da günümüzün belə şəxsiyyətlərindəndir.



Sərdar Fərəcovun sənət yolunda addımları Asəf Zeynallı adına Orta İxtisas Musiqi Məktəbindən (1973) başlayır. Burada tar sinfində görkəmli ustad Bəhram Mansurovdan, 2-ci kursda oxuduğu zaman isə məktəbin müdiri, görkəmli bəstəkar Vasif Adıgözəlovun göstərişi ilə dahi Qara Qarayevin yetirməsi Əziz Əzizlidən bəstəkarlıq üzrə dərslər almışdır. Onun bu illərdə yazdığı fortepiano üçün "Prelüdlər", "Variasiyalar", violin ilə fortepiano üçün "Skertso" və "Elegiya", fortepiano üçün sonatina, simli kvartet, xalq çalğı alətləri orkestri üçün "İki rəqs" və s. əsərlər o zaman nüfuzlu musiqiçilər tərəfindən yüksək qiymətləndirilmişdi.

Təhsilini Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) bəstəkarlıq ixtisası üzrə professor Xəyyam Mirzəzadənin sinfində davam etdirən S.Fərəcov bu dövrdə də bir sıra maraqlı əsərlər yazır, müsabiqə və festivallara qatılaraq laureat diplomları qazanır. Daha sonra təhsilini aspiranturada davam etdirir, yaradıcılıq ezamiyyətlərinə, xarici ölkələrdə keçirilən seminarlara, yaradıcı görüşlərə qatılır ki, bu da gənc bəstəkarın inkişafı və dünyagörüşü üçün çox vacib idi. Taleyin gənc bəstəkarı gətirdiyi və uzun illərdir çalışdığı məkan isə dahi Üzeyir bəyin ev-muzeyi olur.

Bu barədə özü belə deyir: "Dahi Üzeyir Hacıbəylinin yaşadığı ev, buradakı şərait, ömrün eksponatlara dönmüş səhifələri məni əfsunladı, bu səliqə-sahmanın içində bərqərar olmuş sakitlik, əmin-amanlıq sanki böyük ustadın müqəddəs ruhuna keşik çəkirdi. Hiss etdim ki, buradakı saflığa, dərin qüdsiyyətə içimdə bir ehtiyac var və məhz həmin an burada qalıb çalışmağa özlüyümdə qərar verdim...".

Bir musiqiçi-bəstəkar üçün Üzeyir bəyin evindən daha doğma, müqəddəs bir məkan hara ola bilərdi ki?! İllər ərzində muzeyin fonoteka müdiri, elmi katibi vəzifələrində çalışaraq Üzeyir bəyi və onun yaradıcılığını daha dərindən öyrənir, tədqiq edir və muzey işində öz əməyini, zəhmətini əsirgəmir. 30 ildən artıq muzeydə çalışan S.Fərəcov 2005-ci ildən direktor vəzifəsinə təyin olunur.

Sərdar müəllimin Üzeyir Hacıbəylinin unudulmuş, tamamlanmamış bir sıra əsərlərinin bərpa olunması və səsləndirilməsində göstərdiyi təşəbbüsü, əməyini xüsusi qeyd etmək lazımdır. O, 2003-cü ildə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə nəşr edilmiş "Arşın mal alan" operettasının not və librettosunun yer aldığı (ingilis dilində) kitabın redaktoru, 2005-ci ildə Üzeyir bəyin vətənpərvərlik mahnılarından ibarət "Vətən, millət, ordu" not kitabının tərtibçisi və redaktoru, 2007-2008-ci illərdə nəşr edilmiş "O olmasın, bu olsun" operettasının və "Leyli və Məcnun" operasının klavirlərinin redaktoru olub. Üzeyir Hacıbəylinin "Milli marş"ı, "Azərbaycan marşı" (Dövlət himni), "İki rəqs"i, simli kvartet üçün miniatürləri, "Səni gözləyir"i, "Bahar nəğməsi", "Çırpınırdın, Qara dəniz"i S.Fərəcov tərəfindən tədqiq olunub, tamamlanıb, redaktə edilib, partitura və ya klavir şəklində ictimaiyyətə təqdim edilib. O, Üzeyir Hacıbəylinin özü tərəfindən məhv edilmiş "Şeyx Sənan" operasından 3 fraqmenti bərpa edərək yeni redaktədə solistlər, xor və simfonik orkestr üçün işləyib. Bundan əlavə, Üzeyir bəyin unudulmuş "Azərbaycan çölləri" (ilk adı "Kolxoz çölləri") əsərini "Kontempo" instrumental ansamblı üçün işləyib, "Ər və arvad" operettasının həm klavirinin, həm də partiturasının yaradılmasında və onun səhnələşdirilməsində böyük əmək sərf edib. Bu, 2010-cu ildə "Ər və arvad" operettasının 100 illiyinə və Üzeyir Hacıbəylinin 125 illik yubileyinə böyük hədiyyə idi. Üzeyir bəyin xatirəsinə həsr etdiyi "Qu nəğməsi" radio-pyesi, həmçinin Üzeyir bəyin şərəfinə bəstələdiyi "Koroğlu əfsanəsi" adlı simfonik uvertürası da dahi bəstəkarın şəxsiyyətinə, yaradıcılığına bəslədiyi sonsuz ehtiramın nişanəsidir.

Bunlarla yanaşı, S.Fərəcov müxtəlif janrlarda əsərlərin – "Şəngül, Şüngül" uşaq rok-operası, 4 operetta ("Səhnədə məhəbbət", "Müsyö Jordan", "Şəhərdə manyak var", "Birgünlük siğə"), "Matəm harayları" simfonik freskası, a capella xor üçün "Diptix" adlı konsert, soprano, xalq çalğı alətləri üçün "Bayatı-Şiraz" rapsodiyası, TÜRKSOY-un 20 illiyinə həsr edilmiş "Türk bayramı" simfonik uvertürası, tar və simfonik orkestr üçün "Qarabağnamə", "Cavad xan" baleti və s., habelə 40-dan çox tamaşaya, 2 filmə musiqilərin müəllifidir.

Sərdar Fərəcov bəstəkar, tədqiqatçı olmaqla yanaşı, həmçinin ədəbi yaradıcılıqla da məşğul olur, şeir və hekayələr, libretto və ssenarilər yazır. Üzeyir Hacıbəyliyə həsr olunmuş "Əbədi iftixarımız" (2010, "Azərbaycantelefilm"), "Üzeyir Hacıbəyli və Azərbaycan Bəstəkarlar İttifaqı" (2014) filmlərinin ssenari müəllifidir. 1996-cı ildə nəşr olunmuş "Üzeyir Hacıbəyov ensiklopediyası"na 30-a yaxın elmi məqalə yazıb. Mədəniyyət Nazirliyinin dəstəyi ilə çap olunmuş "Üzeyir işığında" məqalələr toplusu və Heydər Əliyev Fondunun dəstəyi ilə çapdan çıxmış "Üzeyir Hacıbəyli xatirələrdə" kitabları xüsusilə diqqətəlayiqdir. Sərdar Fərəcov 2010-2020-ci illərdə AzTV və "Mədəniyyət" kanalında "Musiqi xəzinəsi" verilişinin müəllifi və aparıcısı kimi də fəaliyyət göstərib.

Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər Ordumuzun Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi, şanlı Zəfərimiz, bir çox yaradıcı insanlar kimi, S.Fərəcovun da fəaliyyətində yeni ilham qaynağı olub. Onun Qarabağa – Şuşaya səfəri "Azad Şuşa", "Cıdır düzündə bayram" kimi musiqi əsərlərini yazmağa ilhamlandırıb. İnanırıq ki, bəstəkar vətəninin gözəlliklərini tərənnüm edəcək hələ neçə-neçə əsərlər yaradacaq.

Ömrünün gözəl çağını – 65 illiyini yaşayan Sərdar Fərəcovu yubileyi münasibətilə ürəkdən təbrik edir, Üzeyir Hacıbəylinin Ev-Muzeyinin rəhbəri kimi fəaliyyətində, bəstəkar olaraq yaradıcılığında tükənməz güc, yeni-yeni nailiyyətlər və möhkəm cansağlığı arzulayırıq.

**Aytən Heydərova**

# Musiqi Mədəniyyəti Dövlət Muzeyində tanınmış qarmon ifaçısı ilə görüş

Dekabrın 7-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin "Musiqi Həvəskarları Klubu"nda tanınmış qarmon ifaçısı Vaqif Əliyevlə ("Segah Vaqif") görüş keçirildi.




Tədbiri muzeyin direktor müavini Təranə Zeynalova açaraq əvvəlcə Azərbaycanda qarmon ifaçılığı tarixindən danışdı. Bildirdi ki, qarmon Azərbaycan xalq çalğı alətləri arasına daxil olduqdan sonra instrumental ifaçılıqda özünə mövqe qazanır. Təsadüfi deyil ki, təkmilləşdirilmiş müasir qarmon bir çox hallarda xalq musiqisi aləti kimi qəbul olunur. Təranə Zeynalova sonra tanınmış qarmon ifaçısından söz açdı. Qeyd etdi ki, Vaqif Məhərrəm oğlu Əliyev gənc ikən fitri istedadı sayəsində sənətin sirlərinə yiyələnib, milli musiqimizin təbii rəngləri və əsrarəngiz səslərini bütün gözəllikləri ilə xalqa çatdırıb. İfası dinləyici və tamaşaçılar tərəfindən maraqla qarşılanıb. Bu gün Vaqif Əliyevin 60 yaşı tamam olur. Onun keçdiyi ömür və sənət yolunu öz dilindən eşidək.

Tanınmış qarmon ifaçısı həyat və sənət yolundan danışdı. Qeyd etdi ki, 1961-ci ildə Bakıda dünyaya göz açıb. Valideynləri Ağdamın Abdal Gülablı kəndindəndir. Atası balaban, dayısı isə qarmon ifaçıları olub: "Onlar tez-tez məşq edərdilər. Mən isə o səsləri yaddaşıma köçürərdim. 6-7 yaşım olanda valideynlərimdən xahiş etdim ki, mənə qarmon alsınlar. Mənə balaca bir qarmon aldılar. Bir gün dayım bizə gəlmişdi. İfama qulaq asdı və bəyəndi. Sonra mənə "Kazan" qarmonu aldılar. Bakıxanov qəsəbəsindəki musiqi məktəbində təhsil almağa başladım. Sonra sənətə olan sevgim sayəsində Azərbaycan İncəsənət İnstitutunu (indiki Mədəniyyət və İncəsənət Universiteti) bitirdim. Bir müddət böyük sənətkarımız Əlibaba Məmmədovun "Hümayun" ansamblında, sonra məşhur xanəndə Səxavət Məmmədovla çiyin-çiyinə "Qarabağ" instrumental ansamblında çalışdım...".

Bəs, görəsən, qarmon ifaçısına niyə "Segah Vaqif" deyirlər? Yubilyar buna da aydınlıq gətirdi: "Segah" nəfəsim, canımdır. "Segah"ın vətəni Qarabağdır. Qarabağ dərd və kədərimizi "Segah"la bölüşürəm…".

Tədbirdə daha sonra Xalq artistləri Gülyaz Məmmədova, Teyyub Aslanov, Malik Mansurov Əməkdar artistlər Firuz Səxavət, Təhmiraz Şirinov, Azad Şükürov, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı, Əməkdar müəllim Qəzənfər Abbasov, şairlər Allahverdi Qiyaslı, Abdal Qəhrəman və başqaları çıxış edərək yubilyarı təbrik etdilər.

Çıxışlar arasında xalq və bəstəkar mahnıları səsləndirildi. Yubilyara həsr edilən şeirlər oxundu.

**Savalan Fərəcov**

# Mədəniyyət müəssisələrində "Ustad dərsləri" həftəsi

Xəbər verdiyimiz kimi, görkəmli Azərbaycan bəstəkarları Fikrət Əmirov və Rauf Hacıyevin 100 illik yubileyləri münasibətilə "Ustad dərsləri" həftəsi keçirilib.



28 noyabr – 2 dekabr tarixlərini əhatə edən layihədə Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) təşkilatçılığı ilə Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Sumqayıt, Gəncə, İsmayıllı regional mədəniyyət idarələrinin tabeliyindəki uşaq musiqi, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinin xor dirijorluğu, xanəndəlik və qanun ixtisasları üzrə müəllimləri iştirak ediblər.




Layihənin məqsədi Mədəniyyət Nazirliyi sisteminə daxil olan bədii təhsil ocaqlarında tədrisin səmərəliliyinin daha da artırılması, müəllimlərin peşəkarlığının yüksəldilməsi, təlim prosesinin müasir standartlar əsasında yenidən qurulması və tədris edilən fənlərin təhsilalanlar tərəfindən daha yaxşı mənimsənilməsini təmin etməkdən ibarət olub.

Xanəndəlik ixtisası üzrə ustad dərsləri Azərbaycan Milli Konservatoriyasının müəllimi, Əməkdar müəllim Qəzənfər Abbasov və Bakı şəhər Ş.Ələkbərova adına 20 nömrəli onbirillik Musiqi məktəbinin müəllimi Kəmalə Cahangirova tərəfindən aparılıb.

Musiqi məktəblərinin xanəndəlik, xor dirijorluğu və qanun müəllimləri üçün xor dirijorluğu ixtisası üzrə partitura oxunuşu, xorun və dərsin təşkili, musiqi təhlili, ifa növləri və s. dərslər keçirilib. Xanəndəliklə bağlı ustad dərsində xalq və bəstəkar mahnılarının ifası, tədris proqramı, qanun dərsində isə verilən əsərin alətdə üzdən oxunması (üzdən ifası) və əzbər ifası, alətin yaranması və inkişaf tarixi, ixtisasın metodikası və metodologiyası, ifaçılıq mədəniyyəti və s. haqqında ətraflı məlumat verilib.

Qeyd edək ki, ustad dərslərində xanəndəlik ixtisası üzrə 31 nəfər, xor dirijorluğu üzrə 61, qanun ixtisası üzrə isə 20 nəfər müəllim iştirak edib. Aparıcı bədii təhsil müəssisələrinin istedadlı şagirdləri öz çıxışları ilə ustad dərslərinə rəng qatıblar.

# Onlarda da gəlin "süpürgə" olmadı...

## Özbək teatrının "Qayınana"sı Bakıda maraqla qarşılandı



Az qala bəşəri problemlər sırasına daxil olub klassik gəlin-qayınana məsələsi. Bir də daim gah şişi, gah da kababı yanmağa qoymamaq üçün dəridən-qabıqdan çıxıb, axırda elə özü manqalın ən odlu yerinə düşən oğul, ər mövzusu.

Zaman-zaman müəyyən tragikomik hadisələr fonunda həyatdan efir-ekrana, teatr səhnəsinə gəlib çıxan bu mövzunun bizim cəmiyyət üçün etalonu məşhur "Qayınana" filmidir. Ona mehriban gəlin-qayınanadan düşmən külfətlərə qədər hamısı baxır, qəşş edənə qədər gülürlər. Belə olmasaydı, az qala ilin 12 ayı Azərbaycan kanallarında "Qayınana"nı görüb baxmazdıq. Sizi bilmirəm, mən bu məşhur filmə az qala 100 dəfə baxmışam. Özü də hər dəfə ayrı maraqla, həm də nə isə taparaq...

Bilmirəm, nə hikmətdir, amma bu sadə məişət mövzusu nəinki bizim, hətta qonşu ölkələrin, xüsusən də qardaş türk dövlətlərinin musiqisindən, kino və səhnəsindən bu və ya digər şəkildə keçib.

Mətləbdən uzaq düşmədən keçək özbək qardaşlarımızın Bakıda nümayiş etdirdikləri "Qayınana" tamaşasına. Xəbər verdiyimiz kimi, dekabrın 1-dən 6-dək Özbəkistanın Səmərqənd vilayəti Kattakurqon Şəhər Dram Teatrının yaradıcı heyəti Bakıda qastrol səfərində idi. Həmin teatrda, özü də bizim rejissor tərəfindən hazırlanan tamaşa üç gün Azərbaycan Dövlət Akademik Musiqili Teatrında nümayiş olundu. Qonaq kollektiv həm tamaşa salonunu doldura bildi, həm də haqq etdikləri sevgi və alqışı aldı.

Xatırladım ki, tamaşaya Akademik Musiqili Teatrın quruluşçu rejissoru, Əməkdar incəsənət xadimi Əsgər Əsgərov quruluş verib. Bu ilin yazında Avrasiya Teatrlar Birliyinin nümayəndələri Gəncəyə səfər edərkən rejissorun bu şəhərin teatrında qoyduğu "Cavad xan" tarixi dramına baxırlar və onu ölkələrinə dəvət edirlər.

Qardaş ölkəyə gedən rejissorun dediyinə görə, özbəklərin az qala əzbər bilib sevərək izlədikləri "Qayınana"nı təxminən bir aya hazırlayıb. Stalin repressiyaları zamanı Səmərqənd vilayətinə sürgün edilmiş azərbaycanlıların çox olduğu, bundan başqa, Azərbaycan mədəniyyətinə sevginin dərin kök saldığı Kattakurqon şəhərinin teatrında bu tamaşa gündə 3-4 seans, həm də dolu zala oynanılır. Tamaşanın Bakı teatrsevərləri üçün nümayişini arzulayan və bizlərin reaksiyası ilə daha çox maraqlanan yaradıcı heyətin bu arzusu da yerdə qalmadı...

İndi isə ilk nümayiş günü haqqında. İstər səhnədəkilərin, istərsə də pərdə arxasındakıların həyəcanla gözlədiyi yaradıcı təmasdan əvvəl səhnəyə hər iki ölkənin teatr rəhbərləri – Akademik Musiqili Teatrın direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayev və Kattakurqon Şəhər Dram Teatrının direktoru Batır Tuqalov çıxaraq səfərin mahiyyətindən, xalqlarımızın qardaşlığından, səhnənin, sənətin ən yaxşı ünsiyyət vasitəsi olmağından danışdılar.

Sonra söz verildi səhnənin əsl sahiblərinə, yəni aktyorlara. Qısa arayış üçün deyim ki, "Qayınana" tamaşası ilk dəfə 1965-ci ildə rejissor Niyaz Şərifovun quruluşunda elə indiki Akademik Musiqili Teatrda səhnəyə qoyulub (müəlliflər: Məcid Şamxalov və Zakir Bağırov). Tamaşanın uzun illər repertuarda olmasına rəğmən yaddaşlarda daha çox film versiyası yer edib. Filmi isə 1978-ci ildə "Azərbaycanfilm"də rejissor Hüseyn Seyidzadə ekranlaşdırıb.

Bu klassik səhnə nümunəsi Əsgər Əsgərovun quruluşunda özbək teatrının repertuarında da özünün uğurlu taleyini yaşayır. Bunu oyunda bişən və onu istənilən auditoriyaya ustalıqla çatdıra bilən (hərçənd o teatr dram teatrıdır və orkestri olmadığına görə musiqili komediyalara o qədər də meyil göstərmir) heyəti görən hər kəs təsdiq edə bilər.

Bu "Qayınana"nın quruluşçu rəssamı Özbəkistanın Əməkdar rəssamı Bəhram Safoyev, musiqi tərtibatçısı azərbaycanlı bəstəkar Sevda Əliyevadır.

Tamaşada Cənnət obrazını Özbəkistanın Əməkdar artisti Gülbahar Məmmədova ifa edir. O Gülbahar ki, ölkəsində kifayət qədər məşhurdur. Əsasən dramatik aktrisa kimi tanınsa da, komik obrazın da öhdəsindən məharətlə gələ bildi. Özü də bizim unudulmaz Nəsibə Zeynalovanın oyun təsirində qalmadan.

Digər rolları isə əsas etibarilə gənclərdən ibarət heyət – Cəsurbəy Axmatov (Ayaz), Umnisa Aminova (Sevda), Həbibulla Abdullayev (İlqar) və Əzizə Mamatnuradova (Afət) ifa edirdi.

Onu da deyim ki, tamaşanın mətnini əzbər bilməyimizdənmi, ya dillərimizin çox bənzərliyindənmi heç birimiz çətinlik çəkmədik: nə ifaçılar tamaşaçı ilə ünsiyyətdə, nə də tamaşaçılar səhnədəki qəhrəmanların özünüifadə canfəşanlığında.

Xüsusən də aforizmə çevrilən "Gəlin mənim süpürgəmdir, harda qoydum, orda da durmalıdır" kimi məşhur ifadələr özbək dilavər, daha cavan, özü də "Məndən canınızı qurtarmağa hələ uzun illər var" ədalı qayınananın (G.Məmmədova) ifasında orijinal, baxımlı və ən əsası da gülməli (bütün istəkləri, sözsüz ki, bu idi) alınmışdı.

Özbək teatr təmsilçiləri sadə məişət qayğılarını, gündəlik mübahisədən yaranaraq parçalanmanı, daha doğrusu, əzazil qayınana üzərində oyun qurmaqla, onu cəzalandırmağa hesablanmış addımı yaxşı duymuş və ona özbək ailəsinin gözündən, öz həyat ayinələrindən baxmağa çalışmadılar. Tamaşanın təbii təsir gücündə də məhz bu faktor böyük rol oynadı. Məsələn, ana ilə oğulun, qonşu ilə deyingən qayınananın münasibətlərində biz bizə yaxşı tanış olan mövzuya özünəməxsus oyun koloriti ilə əlavələri də gözüyumulu qəbul elədik.

Hər iki xalqın dostluq və qardaşlığının hakim olduğu tamaşanın musiqi tərtibatındakı qarmaqarışıqlığın da əsl səbəbi məhz bunda idi. Azərbaycan mahnılarını el şənliklərindən gündəlik həyatlarına hər zaman səsləndirən özbəklərin ən sevdikləri (təbii ki, müəyyən mənada həm də mövzuya uyğun) mahnılar seçilmişdi.

Rejissor burada Afətə Babəkin əlbisəsini ("Babək" kinofilmindən musiqinin müşayiətində) geyindirib qılınc-zirehlə qayınana ilə döyüşə də "sövq" etmişdi. Hərçənd bu və oxşar daha 2-3 səhnəciyin nə mizan, nə də ifadə nizam və mənası yox idi...

Qısacası, mövzuya yaxşı bələd olan, bizim "Qayınana"mıza dərin sevgi ilə bağlanan və onun təsiri altında əzilmədən oyun sərgiləyən qardaş teatrın aktyor heyətini məhz bu cəsarətlərinə görə alqışlayır, qarşılıqlı səfərlərin davamlı olmasını arzulayırıq.

**Həmidə Nizamiqızı**

№91 (1964)
9 dekabr 2022
www.medeniyyet.az

## “Mənim 60, özünün 30 yaşını qeyd etməyi arzulayırdı...”



Ölkəmizin ərazi bütövlüyü uğrunda canını fəda edən Vətən oğulları xalqımıza dəyəri sözlə ifadə edilə bilməyən əbədi qürur miras qoyublar. Bu miras nəsildən-nəslə keçərək şanlı Zəfərimizin müəllifləri olan qəhrəman hərbçilərimizin adını yaşadacaq.

44 günlük Vətən müharibəsi şəhidlərindən daha birini tanıtmaq istəyirik: kiçik çavuş Anar Umarov.

Anar Məhəmməd oğlu Umarov 12 may 1991-ci ildə Yevlax şəhərində anadan olub. Yevlax şəhər Ş.Qurbanov adına 8 nömrəli tam orta məktəbdə təhsil alıb. 2009-cu ildə orta məktəbi bitirib, Ağstafa rayonundakı N saylı hərbi hissədə xidmət keçib. 2014-cü ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq Yevlax və Goranboy rayonlarındakı hərbi hissələrdə xidmətini davam etdirib.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində digər igid oğullarımız kimi Anar da ön cəbhədə döyüşlərə qatılır. Yer aldığı döyüşçü qrupu tərəfindən Murovdağ istiqamətində düşmənin xeyli sayda texnika və canlı qüvvəsi məhv edilir. Anar oktyabrın 30-da Murovdağ uğrunda gedən ağır döyüşlərin birində şəhadətə yüksəlir.

Vətən müharibəsi zamanı Anarın ön xətdə xidmət etdiyini ailə üzvləri onun şəhid olmasından sonra öyrəniblər. Şəhidin atası Məhəmməd Umarov döyüş yoldaşlarının Anar haqqında dediklərinin dilə gətirir: “Hər zaman öndə gedib, ölümün gözünə dik baxıb. Ailəli olan döyüşçü yoldaşlarını qorumağa çalışıb. Deyirmiş ki, siz ailəlisiniz, mən subayam, qoyun irəlidə mən olum...”.

Atası deyir ki, Anar Vətəninə bağlı olduğu kimi, ailəsinə də bağlı idi. Diqqətcil, mehriban, qayğıkeş idi. İşlədiyi müddətdə evə tez-tez gələ bilməsə də, daim telefonla əlaqə saxlayar, hal-əhval tutardı. Arzulayırdı ki, 2021-ci ildə mənim 60 yaşımı, özünün 30 yaşını təmtəraqlı qeyd edək. Qismət olmadı. Dayısı I Qarabağ müharibəsində qazi olmuşdu. Anar uşaq yaşlarından düşmənə nifrət bəsləyir, qisas arzusu ilə yaşayırdı. Arzusuna çatdı. Allah rəhmət eləsin”.

Şəhidin anası Təranə Umarova: “Anar balaca idi, qonşunun oğlu əsgərlikdən qayıtmışdı. Onunla birgə gözaydınlığına getdik. Anar oğlandan soruşdu ki, sən əsgərlikdə nə edirdin? Qonşu onu başa salmaq üçün dedi ki, düşmənləri öldürürdüm. Anar bunu eşidən kimi “Mən də böyüyüb bir gün əsgər olacağam, düşmənləri öldürəcəyəm” dedi...”.

Təranə xanım bildirir ki, Anar sakit uşaq olub, onu heç vaxt incitməyib: “Atasından çəkinər, hər sözünü-sirrini mənimlə bölüşərdi. Həmişə deyirdi ki, mənimlə fəxr edəcəksiniz, elə də oldu. İndi təkcə bizlər deyil, xalqımız onunla fəxr edir”.

Anar Umarov noyabrın 2-də Yevlax şəhər Şəhidlər xiyabanında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda”, “Cəsur döyüşçü” və “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif olunub.

Ruhu şad olsun.

**Nurəddin**

## Sənətşünas alim Toğrul Əfəndiyev vəfat edib



Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Azərbaycan Milli İncəsənət Muzeyi Elmi araşdırmalar şöbəsinin müdiri Toğrul Əfəndiyev 6 dekabr 2022-ci ildə, 62 yaşında vəfat edib.

Toğrul Əfəndiyev 1 yanvar 1960-cı ildə Bakıda tanınmış sənətşünas alim, akademik Rasim Əfəndiyevin ailəsində anadan olub. 1982-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Tarix fakültəsini bitirib. 1982-1988-ci illərdə Mədəniyyət Nazirliyi nəzdində Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzində Elmi araşdırmalar şöbəsinin müdiri vəzifəsində çalışıb.

1986-cı ildə “Azərbaycan incəsənətində təsviri motivlər (VII-XV yüzilliklər)” mövzusunda namizədlik dissertasiyası (fəlsəfə doktorluğu) müdafiə edən T.Əfəndiyev çoxsaylı elmi məqalələrin müəllifi, Azərbaycan mədəniyyət və incəsənətini beynəlxalq arenada təmsil edən bir sıra sərgi, festival və təqdimatların təşəbbüskarı, təşkilatçısı və iştirakçısı olub. O, Azərbaycan kəlağayı sənətinin UNESCO-da “Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı”na salınması üçün nominasiya faylının hazırlanmasında yaxından iştirak edib.

Toğrul Əfəndiyev 2017-ci ildə dövlət başçısının müvafiq sərəncamı ilə “Əməkdar mədəniyyət işçisi” fəxri adına layiq görülüb. Azərbaycan Rəssamlar İttifaqının üzvü idi.

Allah rəhmət eləsin.

## Fikrət Əmirovun yubileyi münasibətilə daha bir konsert ADPU-da təşkil olunub

Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) İncəsənət və fiziki tərbiyə fakültəsində musiqi müəllimliyi ixtisasında təhsil alan tələbələrin iştirakı ilə görkəmli Azərbaycan bəstəkarı, Dövlət mükafatları laureatı Fikrət Əmirovun (1922-1984) 100 illiyi münasibətilə konsert proqramı təşkil edilib.

ADPU-nun Musiqi və onun tədrisi texnologiyası kafedrasının müdiri professor Zemfira Abdullayeva milli musiqi tarixinə parlaq səhifələr yazmış sənətkarın yaradıcılığı haqqında məlumat verib.

Konsertdə bəstəkarın fortepiano musiqisi və digər instrumental əsərləri, “Sevil” operasından, “Min bir gecə” baletindən parçalar, dram tamaşalarına və kinofilmlərə yazdığı musiqi nümunələri səsləndirilib.

Proqram Fikrət Əmirovun “Odlar ölkəsi” mahnısının sədaları ilə yekunlaşıb.

# Əvvəl səhnəni, sonra tibb sahəsini seçmişdi...

XIX yüzilliyin ikinci yarısında Avropa ölkələrindən teatr truppalarının davamlı şəkildə Tiflisə qastrol səfərləri şəhərdə mədəni mühitin canlanmasına mühüm təsir göstərir. Bu mədəni oyanış şəhərdə Azərbaycan teatrının da təşəkkülünə yol açır. Həmin dövrdə teatr aləminə atılan ilk azərbaycanlı aktrisalardan biri Gövhər Qazıyeva olub. Tanınmış aktrisanı anadan olmasının 135 illiyi münasibətilə yada saldıq.



Gövhər Əhməd qızı Qazıyeva 1887-ci ildə Tiflis şəhərində ziyalı ailədə dünyaya göz açıb. Gövhər rus məktəbində təhsil alır. Sonra Nəcib Qızlar İnstitutuna daxil olur. Həmin illərdə şəhərdə fəaliyyət göstərən Gürcü Zadəgan Teatrı özünün ən parlaq dövrünü yaşayırdı. Teatrda həvəskar azərbaycanlı aktrisa və aktyorlar da tez-tez tamaşalar göstərirdi. Çox keçmir bu teatrın nəzdində Mirzə Əli Abbasovun rəhbərlik etdiyi “Dram cəmiyyəti”, Həbib bəy Köçərlinskinin başçılıq etdiyi “Səadət” adlı Azərbaycan teatr truppaları yaradılır. Hər iki truppa şəhərdə yaxşı ad-san qazanır.

Səhnə sənətinə maraq göstərən Gövhər Qazıyeva hər iki truppanın tamaşalarında uğurla çıxış edir. O, ilk dəfə 1910-cu il oktyabrın 9-da Nəcəf bəy Vəzirovun “Müsibəti-Fəxrəddin” faciəsinin tamaşasında səhnəyə çıxır. Həmin il oktyabrın 30-da “Səadət” truppası Şəmsəddin Saminin “Gaveyi-ahəngə” (“Dəmirçi Gavə”) pyesini tamaşaya hazırlayır. Gavə rolunda Sultanov, Fərhad rolunda Mir Seyfəddin Kirmanşahlı, Xubçöhr obrazında isə Gövhər Qazıyeva çıxış edir. Bir-birinin ardınca oynadığı uğurlu rollar ona qısa müddətdə şöhrət gətirir. Onun aktrisa məharəti Tiflisin hüdudlarını aşır, Bakı qəzetlərində haqqında məqalələr dərc olunur. “Nicat” cəmiyyəti bu tanınmış sənətkarı bir müddət sonra Bakıya dəvət edir.

Araşdırmalardan məlum olur ki, Gövhər Qazıyevanın repertuarı geniş və əhatəli olub. O, Henrix Heynenin “Əlmənsur”, Loxmanovun “Napoleonun vəfatı”, Namiq Kamalın “Qara bəla” əsərləri ilə yanaşı, Azərbaycan dramaturqlarının tamaşalarında da oynayır. Nəriman Nərimanovun “Nadir şah” pyesində Gülcahan, Əbdürrəhim bəy Haqverdiyevin “Pəri cadu” tamaşasında Hafizə, “Bəxtsiz cavan” faciəsində Mehri xanım, Zülfüqar Hacıbəyovun “Evliykən subay” əsərində Pərizad rollarını sənətkarlıqla yaradır. Üzeyir Hacıbəylinin “O olmasın, bu olsun” musiqili komediyasında Gülnaz, “Leyli və Məcnun” operasında Leyli rollarının ifaçısı olan Gövhər Qazıyeva bu obrazları özünəməxsus şəkildə canlandıra bilib.

1911-ci il mayın 26-sı və 30-da Tiflis şəhərində aktrisanın benefisi keçirilir. Gecədə ilk dəfə Zülfüqar Hacıbəyovun “On bir yaşlı arvad” pyesinin tamaşası göstərilir. Ancaq onun tamaşada oynamasına maneə törədirlər. Adını da qoyurlar ki, müsəlman qadının səhnəyə çıxması cahil adamları narahat edir. Din xadimləri də onun səhnə fəaliyyətinin əleyhinə olurlar.

Gövhər Qazıyeva Azərbaycan teatr səhnəsinin Hüseyn Ərəblinski, Mirzəağa Əliyev, Hüseynqulu Sarabski, Mir Seyfəddin Kirmanşahlı və başqa görkəmli simaları ilə tərəf-müqabil olub. Onun M.Əliyevlə əməkdaşlığı ilk dəfə Tiflisdə “Əlli yaşında cavan” tamaşasında olur. İrəvan şəhərində isə onlar daha böyük uğurlara imza atırlar. M.Əliyevlə G.Qazıyevanın sənət dostluğu sonralar məhəbbətə çevrilir. Onlar 1912-ci ildə ailə həyatı qurur və Bakıya köçürlər. Bu, G.Qazıyevanın ikinci nikahı idi. Birinci ərindən İsmayıl adlı oğlu vardı. Lakin evlənəndən sonra M.Əliyev həyat yoldaşının səhnədə çıxış etməsinə icazə vermir. Belə olan halda onlar ayrılmalı olurlar.

Çar hökuməti orqanlarının fitnəkarlığı nəticəsində M.Əliyev həmin il Həştərxana sürgün olunur. G.Qazıyeva isə 1913-cü ildə Polşaya gedir. Varşavada Tibb Məktəbinə daxil olur. 1915-ci ildə mamalıq üzrə bu təhsil müəssisəsini müvəffəqiyyətlə başa vurur və Bakıya qayıdır. Həmin il “Bəsirət” qəzeti G.Qazıyevanın tibb sahəsində fəaliyyətə başlaması haqqında bir elan verir.

Bir müddət sonra Gövhər xanım üçüncü dəfə ailə həyatı qurur və bir daha səhnəyə çıxmır. Aktyor və rejissor Mir Seyfəddin Kirmanşahlının təhriki ilə o, İrana gedir. Uzun ayrılıqdan sonra 1937-ci ildə bir neçə günlüyə Bakıya gəlir. Keçmiş səhnə yoldaşları onu təmtəraqla qarşılayırlar. Hətta teatrda şərəfinə qəbul da təşkil edirlər. O, Cəfər Cabbarlının “Almaz” pyesinin tamaşasına baxır. Tamaşa və qəbul günü qeyri-adi bir hadisə baş verir. Gövhər xanım on beş il üzünü görmədiyi oğlu İsmayılı tapır. Böyük sevinc hissi keçirən ana hamıya hədiyyə paylayır...

İlk teatr aktrisalarımızdan olan Gövhər Qazıyeva 1960-cı ildə Cənubi Azərbaycanda haqq dünyasına qovuşub.

**Savalan Fərəcov**

## Azərbaycan və Başqırdıstan arxeoloqları əməkdaşlıq edəcək

AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun baş direktoru professor Abbas Seyidov 3-4 dekabr tarixlərində Rusiya Federasiyası Başqırdıstan Respublikasının Ufa şəhərində keçirilən “Orta əsrlər Avrasiyasının köçəri sivilizasiyaları” (2-ci “Məcidov oxuları”) beynəlxalq elmi-praktik konfransında iştirak edib.

Başqırdıstanın tanınmış arxeoloqu, akademik Niyaz Məcidovun (1933-2015) xatirəsinə həsr olunan konfransa Rusiya, Özbəkistan, Azərbaycan, Qazaxıstan və Monqolustandan alimlər qatılıblar. Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun baş direktoru konfransda çıxış edib.

İnstitutdan bildirilib ki, konfrans iştirakçıları öncə Ufa şəhərindən təxminən 400 km məsafədə ibtidai insan məskəni olan Şulqan-Taş mağarasında və həmin ərazidə bu ilin iyul ayında açılmış müasir tipli muzeydə olublar. Mağaranın içərisinə uzanan yolların uzunluğu 3 km-dən artıqdır. Şulqan çayı mağaranın altından keçərək onun giriş hissəsində yenidən torpaq üzərinə çıxır.

Qonaqlar Başqırdıstanın Milli Tarix Muzeyi, Arxeologiya və Etnoqrafiya Muzeyi ilə də tanış olub, məşhur başqırd şairi Salavat Yulayevin abidəsini ziyarət ediblər.

A.Seyidov üzəri əl işi ilə bəzədilən Azərbaycan bayrağının kiçik maketini konfransın təşkilatçılarına hədiyyə edib, yerli



televiziya və informasiya agentliklərinə müsahibə verib.

Tədbir çərçivəsində Başqırdıstan arxeoloqlarının Azərbaycanda, Azərbaycan arxeoloqlarının isə Başqırdıstanda tədqiqat aparması üçün ilkin razılığa gəlinib.

## Davamlı inkişafı hədəfləyən sahə

### ATMU-da “Yaşıl iqtisadiyyat” kitabının təqdimatı

Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) Biznes idarəçiliyi fakültəsi və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) birgə təşkilatçılığı ilə “Yaşıl iqtisadiyyat” kitabının təqdimatı olub.

Tədbirdə çıxış edən ATMU-nun rektoru İlham Mədətov “Yaşıl iqtisadiyyat” kitabının məhz bu təhsil ocağında təqdimatından məmnunluğunu bildirib.

İİTKM-in icraçı direktorunun müavini Ramil Hüseyn yaşıl iqtisadiyyatın müasir dövrün ən böyük problemlərindən olduğunu söyləyib. O, dünya alimləri tərəfindən bu istiqamətə marağın gündən-günə artdığını qeyd edərək, ekoloji riskləri və çatışmazlıqları azaldan yaşıl iqtisadiyyatı davamlı inkişafı hədəfləyən sahə prizmasından dəyərləndirib.

İİTKM-in departament rəhbəri Rəşad Hüseynov alternativ enerji mənbələrinin növləri, alternativ enerjidən istifadəyə keçidin sosial-iqtisadi faydaları, ATMU-nun İqtisadiyyat kafedrasının müdiri Səkinə Hacıyeva yaşıl maliyyə məhsulu və xidmətləri, pərakəndə maliyyə və yaşıl investisiyalar barədə danışıblar.

# Məmmədəli Hüseynovun Daş dövrü arxeologiyasına verdiyi töhfələr

### Görkəmli arxeoloqun 100 illiyinə həsr edilmiş elmi konfrans



*Professor Məmmədəli Hüseynov dünya əhəmiyyətli tədqiqatları ilə arxeologiya elmini zənginləşdirib. Bu fikir 5-6 dekabrda Bakı Dövlət Universitetində (BDU) görkəmli alimin 100 illik yubileyinə həsr edilmiş “Məmmədəli Hüseynovun Daş dövrü arxeologiyasına verdiyi töhfələr” mövzusunda beynəlxalq elmi konfransda vurğulanıb.*

BDU-nun tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov bildirib ki, Azərbaycan arxeologiya elmində paleolit məktəbinin banisi tarix elmləri doktoru, professor Məmmədəli Hüseynovun arxeologiya elminin inkişafında əvəzsiz xidmətləri olub. 1953-cü ildə Məmmədəli Hüseynovun iştirakı ilə Qazax rayonundakı Damcılı mağarasında Azərbaycanda ilk qədim Daş dövrü düşərgəsi aşkarlanıb.



Onun ən mühüm elmi nailiyyətlərindən biri Qarabağda, Quruçay dərəsinin Tuğ çökəkliyində yerləşən, zəngin stratiqrafiyaya malik unikal Azıx Paleolit mağara düşərgəsini dünya arxeologiyasının qızıl fonduna daxil etməsidir. Bu arxeoloji abidə sivilizasiyanın ən qədim məskənlərindən birinin məhz Azərbaycan olduğunu isbatlayır. Alim həmin tədqiqatlara əsaslanaraq Azərbaycanın, bütövlükdə Qafqazın bəşəriyyətin formalaşma xəritəsində yer aldığını, 1,2 milyon il və daha əvvəl Azıx mağara düşərgəsində ibtidai insanların “homo erectus” (dik yeriyən adam) tipli nümayəndələrinin yaşadığını sübut edib.

Görkəmli alim 1976-1992-ci illərdə Arxeologiya və etnoqrafiya kafedrasına rəhbərlik etməklə BDU-da arxeologiya elminin inkişafına da töhfələr verib. Məmmədəli Hüseynovun BDU-nun Tarix fakültəsində təşkil etdiyi Arxeologiya və etnoqrafiya muzeyinin eksponatları Daş dövründən Orta əsrlərədək geniş xronoloji çərçivədə arxeoloji materiallardan, müxtəlif təyinatlı etnoqrafik nümunələrdən ibarətdir.

Tarix fakültəsinin dekanı İbrahim Zeynalov məruzəsində qeyd edib ki, Məmmədəli Hüseynovun tədqiqatları Qazax-Gəncə və Qarabağ bölgələrinin Daş dövrü düşərgələri ilə məhdudlaşmır. Onun 30 ilədək rəhbərlik etdiyi ekspedisiya respublikamızda hazırda mövcud olan Paleolit düşərgələrinin xəritəsini müəyyənləşdirib. O, Azərbaycan tarixinin xronoloji çərçivəsinin 2 milyon illə ölçüldüyünü təkzibedilməz faktlarla sübut edib.

Konfransda akademik Yaqub Mahmudov, Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Daş dövrü şöbəsinin müdiri Əsədulla Cəfərov, institutun aparıcı elmi işçisi Azad Zeynalov, Gürcüstanın İlya Dövlət Universitetinin Arxeoloji Tədqiqatlar Mərkəzinin direktoru Nikoloz Zuşabramişvilinin məruzələri dinlənilib.

Xalq şairi Nəriman Həsənzadə, alimin qızı Rəhilə Babayeva Məmmədəli Hüseynovla bağlı xatirələrini bölüşüblər.

Konfransın ikinci günü Azərbaycan, ABŞ, Yaponiya, Almaniya, Gürcüstan və Qazaxıstandan alimlərin məruzələri dinlənilib. “Professor Məmmədəli Hüseynovun elmi irsi”, “Daş dövrü arxeologiyası”, “Qafqazın geoarxeologiyası”, “Azərbaycanın Daş dövrü arxeologiyasının nəzəri məsələləri”, “İşğaldan azad edilən ərazilərin tarixi, maddi mədəniyyət abidələri və onların bərpası məsələsi” mövzularında müzakirələr aparılıb.

Qeyd edək ki, Məmmədəli Hüseynovun 100 illik yubileyi münasibətilə BDU-nun Tarix fakültəsi tərəfindən onun elmi məqalə və monoqrafiyaları toplanaraq iki cilddə çap edilib.

# Akvarellə lirika: rənglərin mübaliğəsi

## Rəssam Hafiz Kərimovun yaradıcılığı haqqında düşüncələr



Hər sənətkarın yaradıcılığa doğru özünəməxsus bir yolu olur. Bəziləri uşaqlıqdan qarşısına məqsəd qoyub hər gün bacarıqlarını daha da kamilləşdirir, bəziləri də yalnız ömrün orta çağlarında öz istedadını kəşf edir və itirilmiş vaxtı faydalı yaradıcılıqla doldurmağa çalışır...

Akvarelçi rəssam kimi tanınan Hafiz Kərimovun sənətə olan marağı uşaq yaşlarından hamının diqqətini çəkmişdi. Doğulduğu Naxçıvanda müəllimi ona gələcəkdə istedadlı rəssamlardan biri olacağına inandığını demişdi. Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin Dekorativ-tətbiqi sənət fakültəsini fərqlənmə diplomu ilə bitirən rəssam özünü sənətin müxtəlif sahələrində sınamışdır. Təsviri sənətin dekorativ-tətbiqi sənət, rəngkarlıq, qrafika və başqa növləri onun yaradıcılığında özünəməxsus tərzdə təqdim olunur. Özünün də qeyd etdiyi kimi, yaradıcılığında Bəhruz Kəngərli, Səttar Bəhlulzadə, Yavuz Kərimov kimi sənətkarlardan bəhrələnmiş, beləcə, sənət yolunda öz dəst-xəttini formalaşdırmağa nail olmuşdur.

Hafiz Kərimovun əsərlərində onun həssas və kövrək təbiətindən irəli gələn, rəssamı incəsənətin müxtəlif istiqamətlərinə meyilləndirən güclü lirizm özünü büruzə verməyə bilməzdi. Poeziyaya, musiqiyə olan həvəsi, təbiətə vurğunluğu gec-tez özünü təsviri sənətdə göstərdi. Akvarel texnikasına müraciət edən hər kəs yekdilliklə təkrar edir ki, akvarel rəssamlıq sənətində ən mürəkkəb və "şıltaq" boyadır. Bu, həqiqətən də, belədir. İndi isə düşünək ki, qış mənzərəsini akvarellə təsvir etmək üçün nə dərəcədə məharətə sahib olmaq lazımdır?! Bu boya bəzən kağıza o qədər yayıla bilər ki, nəticədə rəssamın ideyasına zidd bir forma meydana çıxar. Bəzən rəssamlar akvarelin məhz bu xüsusiyyətini bəyənirlər və qeyd edirlər ki, akvarel bir vuruşla özü çox şeyi həll edir... Boyadan istifadənin çətinliyinə baxmayaraq, əsl usta bu boya ilə inanılmaz möcüzələr yaradır. Zəngin rəng koloritinə malik, qrafika ilə rəngkarlıq arasında keçid mövqeyi tutan akvarel boya ilə iş nə qədər çətin olsa da, onun rəssama bəxş etdiyi zövq də bir o qədər əzizdir.

Hafiz Kərimov da şıltaq təbiətin gözəlliklərini vəsf edərkən akvarel boyalar vasitəsilə yerinə yetirdiyi geniş rəng oyunu hesabına qavrayışa təsir edən hiss yaratmağa çalışaraq dərin təəssüratlara yol və harmoniyasına, lirik ruhuna rəssam gözü ilə baxmağa dəvət edir. Bu mənada, "Kəndimiz", "Xanəgah-Naxçıvan", "Batabat", "İstanbul", "Bakı", "Qəbələ", "Bakıda Venesiya", "Fırtınada", "Xınalıqda", "Lahıc mənzərəsi", "Kənd axşamları", "Qürub çağı", "Şahbuzda payız" kimi tablolarında biz müəllifin müşahidələrinin məhsulu olan al-əlvan boyalarla rənglənmiş Azərbaycan torpağının zəngin təbiətinə bir daha vuruluruq. Təbiətin özəl rənglərinə bələd olan sənətkar bilərəkdən rənglərin mübaliğəsinə yol verir, yaradıcılığında yaşıl, qırmızı, sarı kimi şux boyalardan geniş istifadə edir. Mavi, yaşıl, boz, narıncı rənglərə boyanmış rast gəldiyimiz estakadalar, dəmir konstruksiyalar, neft buruqları kimi mövzulara Hafiz Kərimovun "Zabratda neft estakadası" əsərində fərqli rakursdan baxılmışdır. Nadir hallarda rəssamlar akvarel işlərində yalnız ağ və qara rənglərdən istifadə etməklə kompozisiya yaradırlar. Bu cür fərqli və nadir xüsusiyyətləri özündə cəmləyən əsərdə rəssamın istedadını açıq şəkildə müşahidə edirik. Romantik ab-havaya bürünmüş əsər nostalji duyğular aşılayır.

Fırça ustası məhsuldar torpaqları, özünəməxsus təbiəti olan Azərbaycana xas meyvələrin, güllərin təsvirlərinə də ayrı bir məhəbbətlə yanaşmışdır. O,





açır. O, təbiəti həm də ilin müxtəlif fəsillərində təsvir etməyi sevir. Rəssamın palitrasında mövsümlər məxsusi tərzdə öz əksini tapır. Məsələn, payızın, yayın əlvan çalarları onun əsərlərində dünyamızın tamamilə fərqli bir rəng ahənginə boyanmışdır. Yağış damlaları, günəşin batması, ağacların çiçəkləməsi kimi gözəlliklərin əks olunduğu əsərlərində o, insanı real dünya ilə qarşılaşdırır, onu bir anlıq ecazkar təbiətin ağuşuna sövq edir. Müəllif "Payızın sonu", "Qızıl payız", "Qış. Axşama doğru", "Payız bağları", "Yağışdan sonra", "Payız düşüncəsi", "Damlalar", "Payızın rəngləri", "Yaz fəsli", "Tutqun payız", "Bahar gələndə" kimi əsərlərində fəsillərin dəyişkən ruhunu dolğun və dekorativ bir şəkildə təqdim edir. Rəssamlar İttifaqının V.Səmədova adına Sərgi salonunda təşkil olunan "Fəsillərlə mən" adlı fərdi sərgisində (2017) iştirak edənlər qeyd olunanların əyani şahidinə çevrilmişdilər.

O, qarış-qarış gəzib-dolaşdığı Vətən torpaqlarında gördüyü mənzərələri öz təxəyyülünün prizmasından keçirərək tamaşaçını təbiətdə anın çevikliyi və keçiciliyinə, onun cazibədarlığına, ritm dağ mənzərələrinin təsviri yüksək rəng duyumlu rəssamın fırçası ilə özünəməxsus tutumda yerinə yetirilir. Belə ki, "Xınalıqda", "Şahbuz dağları", "Naxçıvan dağları", "Əshabi-kəhf", "İlandağ" adlı sənət nümunələrində adıçəkilən rənglərin fərqli tonları ritmik tərzdə bir-birini əvəz edir.

Rəssam rəngkarlığın marina janrına da müraciət etmişdir. Onun "Dənizin sakinləri" əsərinin baş qəhrəmanı Xəzər dənizidir. Kompozisiyada dənizin mavi sularının arxasından boylanan neft mədənləri havada uçuşan qağayı təsvirlərinin arasında itmişdir. Perspektiv həllinə gəlincə isə hava perspektivi üsulu ilə yerinə yetirilmiş bu əsərdə arxa plandakı neft mədənləri forma və tonallığını itirmiş, nəticədə güclə sezilir. Ümumiyyətlə, neft və neft mədənləri mövzusu Hafiz Kərimovun yaradıcılığında xüsusi yer tutur. Sənətkarın dəniz mövzusundan əlavə, təsvir etdiyi Vətənimizin sərvəti – "qara qızıl"ın əldə olunduğu sənaye mənzərələri də diqqətimizdən qaçmır. Bu, ola bilsin ki, həm də rəssamın neft sahəsində çalışması ilə də bağlıdır. Görkəmli rəssamlarımızın əksəriyyətinin yaradıcılığında "Yemişan", "Xarıbülbül", "Narlar", "Aldım bir dənə, açdım min dənə – Nar", "Güllər" kimi natürmort janrında təsvir olunmuş əsərlərində də yüksək sənətkarlıq nümayiş etdirir. Rəssam "Xarıbülbül", "Cıdır düzündə bahar", "Xudafərin körpüsü" tabloları ilə min bir əzaba düçar olmuş Qarabağı tərənnüm edərək yaradıcılığında bu mövzuya xüsusi sevgi və qayğı ilə yanaşmışdır.

Akvarel texnikasına individual yanaşan Hafiz Kərimov yaradıcılığı boyu lirik, romantik ruhunu əsərlərində əks etdirərək sanki rəqs edən və süzülən fırça vuruşları, kompozisiya həlli, eləcə də dərin duyğu və təəssürat yaratmaq baxımından özünəməxsusluq nümayiş etdirir. Rəssamın əsərləri təkcə onu tanıyanların evlərini deyil, ölkəmizdə, eləcə də xaricə muzey və qalereyaların ekspozisiyasını bəzəyir, şəxsi kolleksiyalarda qorunur.

Bu il 55 yaşını qeyd edən Hafiz Kərimov fərdi yaradıcılıqla bərabər, pedaqoji fəaliyyətlə də məşğul olur. Rəssama cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.

**Dürdanə Qurbanova**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının elmi işçisi**

# Rəssamlıq sevgisinin izi ilə...

Azərbaycanın təsviri sənət tarixində zaman-zaman böyük rəssamlar yetişmişdir. Onlar öz əsərləri ilə milli mədəniyyətimizi dünyada tanıtmaqla bərabər, özlərindən sonra gələn nəsillərə də sənət yolu açmışlar. Bu gün də sələflərinin sənət işığında uğurlar qazanan, eyni zamanda milli rəssamlığa öz töhfələrini verməyə çalışan gənclərimiz var. Onlardan biri də Rauf Şamilzadədir.




Rauf Sabir oğlu Şamilzadə 1986-cı ildə Bərdə şəhərində dünyaya göz açmışdır. Rəssamlığa böyük maraq göstərdiyini ilk olaraq ailəsi və məktəb müəllimləri fərq edirlər. Daxilində incəsənətə qarşı yaranmış böyük sevgisi sayəsində o, 2004-cü ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasına daxil olur. Bacarıqlı və istedada sahib olan gənc öncə Vətən qarşısında borcunu yerinə yetirmək üçün təhsilinə ara verir və hərbi xidmətə yollanır.

2006-cı ildə əsgərlikdən qayıdandan sonra isə zərgərlik sənətinə meyil salır. Köhnə "Bakı" univermağında sənətkarlarla çalışmağa başlayır, zərgərliyin incəliklərinə dərindən yiyələnir. Rəssamlıq qabiliyyəti və daim öz üzərində çalışması bu sahədə uğurlarına zəmin olur. Əsasən gümüş materialı ilə işləməyə üstünlük verən Raufun əl işlərini çox bəyənən müəllimləri ona qızılla işləməyi təklif edir. Beş il zərgərlik sahəsində çalışaraq sənətdə püxtələşir. Hazırladığı zərgərlik nümunələri, işlərinin zərifliyi onu tanıdır.

Amma daxilində rəssamlığa olan həvəsi, sevgisi qalmışdı. Yaradıcılığa məhz rəssam kimi davam etmək qərarına gəlir. Özünün də etiraf etdiyi kimi, sənətdəki bu dönüşündə Əməkdar rəssam Vüqar Muradovla tanışlığı mühüm rol oynayır. Raufun çəkdiyi əsərləri bəyənən Vüqar Muradov onu müxtəlif ölkələrdə keçirilən art simpoziumlara dəvət edir. Daha çox kətan üzərində yağlı boya və akril texnikası ilə işləyən rəssam ərsəyə gətirdiyi hər bir işi ilə beynində yaratdığı fikri və izah etmək istədiyi




mövzunu aydın şəkildə izləyiciyə çatdıra bilir. Beləcə, əsərlərinin anlaşıqlı olması ilə diqqət çəkir.

Rauf Şamilzadənin ilk uğurlu və peşəkar əsəri 2019-cu ildə kətan üzərində yağlı boya texnikası ilə işlədiyi "Green" adlı tablosu olur. Bu əsərin sənətsevərlər tərəfindən maraqla qarşılanması onu daha da ruhlandırır.

Əsasən isti rəng çalarlarına üstünlük verən rəssamın əsərləri mövzu müxtəlifliyi və fərqli kompozisiyası ilə seçilir. "Gül", "Meyvələr", "Balıqlar" əsərləri buna misal ola bilər. Tablolarında öz duyğularını, keçirdiyi dərin hissləri, düşüncələrini əks etdirən müəllifin əsərlərində kəskin ekspressiya, dinamika duyulur.



Portret, natürmort, mənzərə janrlı əsərləri rəng duyumu, fərqli yanaşmalı təsvirləri ilə diqqət çəkir.

Rauf Şamilzadənin əsərləri daha çox ekspressionizm və abstrakt üslubun birgə vəhdətindən ibarətdir. Bəzi tablolarında kollajdan da uğurla istifadə edir. Natürmort janrında əsərlərindən "Qarpız dilimi", "Yemiş dilimi", "Yasəmənlər", "Kaktus", "Fincandakı güllər", "Qurudulmuş balıq" kimi əsərlərini, portret janrında "Boz gəlin", "Qoca", "Pianoçu", "Kloun" əsərləri, mənzərə janrlı "Su altındakı ev", "Balıqçının evi", "Göl kənarında evlər", "Ağaclıq", mürəkkəb və fərqli kompozisiyalı nümunələrdən "Pişiklərin şahı", "Zaman maşını", "Oğurluq", "Abstrakt", "Narşərab", "Seçim" əsərlərini misal göstərmək olar.

Gənc rəssama əsas ilham qaynağı isə sevdiyi sənətkarların yaratdığı əsərlərlə əldə etdikləri yeniliklər və böyük uğurlardır. Yaradıcılığına heyranlıqla yanaşdığı və nümunə kimi götürdüyü rəssamlardan biri kimi üslubunu çox sevdiyi Anar Hüseynzadəni qeyd etmək olar.

Rauf qısa zamanda bir sıra sərgi və simpoziumlara da dəvətlər alır. Son iki ildə 5-ci və 6-cı "ART ZONE" simpoziumlarında, xeyriyyə məqsədilə keçirilən müxtəlif sərgilərdə, həmçinin Ukrayna uşaqlarına dəstək, YAŞAT Fondunun təşkilatçılığı ilə "Qayıdış" adlı layihələrdə, Əzim Əzimzadənin Ev-Muzeyində, "Suraxanı" gəmi-muzeyində keçirilən sərgilərdə uğurla iştirak edir. Həm özü, həm də əsərlərinə tamaşa edən sənətsevərlər üçün insan ruhunu qidalandıran tablolar yaradan gənc rəssamın əsərləri müxtəlif şəxsi kolleksiyalarda saxlanılır.

**Ziyarət Cabarova**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının böyük elmi işçisi**

## Xatirə təqvimi — 10-13 dekabr

### Azərbaycan

**10 dekabr 1916** – Əməkdar artist Firuzə Xanlar qızı Bədirbəyli (1916-1992) Şəmkir rayonunun Morul kəndində doğulub. Gəncə Dövlət Dram Teatrının aktrisası olub.

**10 dekabr 1918** – Xalq artisti, tanınmış opera müğənnisi Gülxar İbrahim qızı Həsənova (1918 – 30.3.2005) Şəmkir rayonunda anadan olub. Gənc Tamaşaçılar Teatrında səhnə fəaliyyətinə başlayıb. 1942-1980-ci illərdə Akademik Opera və Balet Teatrının solisti olub, filmlərdə, televiziya tamaşalarında çəkilib.

**10 dekabr 1924** – Xalq şairi, dramaturq, Dövlət mükafatları laureatı Nəbi Xəzri (Nəbi Ələkbər oğlu Babayev; 1924 – 15.1.2007) Bakının Xırdalan qəsəbəsində doğulub. Kitabları: "İllər və sahillər", "Ulduz karvanı", "Ağ şimşəklər" və s. "Mirzə Şəfi Vazeh", "Torpağa sancılan qılınc" və s. pyeslərin müəllifidir. Respublika Televiziya və Radio Verilişləri Komitəsinin sədri olub.

**10 dekabr 1935** – Əməkdar rəssam, Dövlət mükafatı laureatı Fikrət Bağır oğlu Bağırov (1935-1996) anadan olub. "Azərbaycanfilm"də kino rəssamı işləyib. Bədii tərtibat verdiyi filmlər: "Şərikli çörək", "Həyat bizi sınayır", "İstintaq", "Güllələnmə təxirə salınır!" və s.

**10 dekabr 1996** – Əməkdar incəsənət xadimi, şair, dramaturq İsgəndər Coşqun (İsgəndər Məhəmməd oğlu Hümmətov; 1927-1996) vəfat edib. "Gəmidə söhbət", "Qığılcımlar", "Nəğmə dolu ürək" və s. kitabların müəllifidir.

**11 dekabr 1918** – Xalq yazıçısı, Dövlət mükafatı laureatı Bayram Salman oğlu Bayramov (1918 – 9.11.1994) Ağdam rayonunun Şıxavənd kəndində anadan olub. "Yarpaqlar", "Arakəsmələr", "Karvan yolu", "Tək palıdın kölgəsi", "Cıdır düzü" və s. romanların müəllifidir. "Mən ki gözəl deyildim", "Firəngiz", "Onun bəlalı sevgisi" filmlərinin ssenarisini yazıb.

**11 dekabr 1933** – Görkəmli yazıçı-dramaturq, publisist Əbdürrəhim bəy Əsəd bəy oğlu Haqverdiyev (17.5.1870 – 1933) vəfat edib. "Dağılan tifaq", "Bəxtsiz cavan", "Pəri cadu" və s. pyeslərin müəllifidir.

**11 dekabr 1972** – Əməkdar artist Müxlis Sabir oğlu Cənizadə (26.11.1928 – 1972) vəfat edib. "Dəli Kür", "Yenilməz batalyon" və s. filmlərdə çəkilib, filmlərin səsləndirilməsində iştirak edib.

**11 dekabr 2002** – Moskvada, İttifaqlar Evinin Sütunlu salonunda Azərbaycan və Rusiya incəsənət ustalarının iştirakı ilə görkəmli bəstəkarlar Fikrət Əmirovun 80, Niyazinin 90 illiyinə həsr olunmuş konsert keçirilib.

**12 dekabr 1926** – Əməkdar mədəniyyət işçisi Aşıq Pənah (Əlipənah Ələsgər oğlu Pənahov; 1926 – 26.8.1978) Salyan rayonunda doğulub. Salyan Dram Teatrında çalışıb. "Kür" aşıqlar ansamblını yaradıb.

**12 dekabr 1927** – Əməkdar mədəniyyət işçisi Alp Məcid oğlu Ağamirov (1927-2000) anadan olub. Azərbaycan Televiziyasında baş redaktor işləyib.

**12 dekabr 1931** – Tanınmış aktyor Tələt Əliağa oğlu Rəhmanov (1931 – 13.11.1995) Bakıda anadan olub. "Arşın mal alan" (1965), "Qayınana", "Kişi sözü" və s. filmlərdə çəkilib.

**12 dekabr 1936** – Əməkdar rəssam Qüdrət Hacıbəy oğlu Məmmədov (1936 – 20.2.2021) Şəki şəhərində anadan olub. Uzun illər Şəki Dövlət Dram Teatrının baş rəssamı işləyib.

**12 dekabr 1937** – Şair, tərcüməçi Əhəd Muxtar (Əhədulla Muxtar oğlu Qənbərov; 1937 – 23.5.1998) Astara rayonunun Kakalos kəndində anadan olub. Rus, özbək, qazax, türkmən şair və yazıçılarının əsərlərini Azərbaycan dilinə çevirib.

**12 dekabr 1939** – Əməkdar incəsənət xadimi, kinorejissor Fikrət Balağa oğlu Əliyev (1939-2016) Bakıda anadan olub. "Baladadaşın ilk məhəbbəti", "Qızıl uçurum", "Yuxu", "Axırıncı dayanacaq", "Ölüm növbəsi" filmlərinə quruluş verib.

**12 dekabr 2002** – Xalq şairi Cabir Novruz (Cabir Mirzəbəy oğlu Novruzov, 12.3.1933 – 2002) vəfat edib. Şeirlərinə populyar mahnılar ("Cavanlığım", "Ey həyat, sən nə qəribəsən", "Tələbəlik illəri" və s.) bəstələnib.

**12 dekabr 2007** – Xalq yazıçısı Hüseyn Abbas oğlu Abbaszadə (22.11.1922 – 2007) vəfat edib. Əsərləri: "General", "Burulğanlar", "Ləpədöyəndə" və s.

**13 dekabr 1929** – Şərqşünas alim, professor Saleh Əliyev (1929 – 21.11.2006) Gəncədə anadan olub. Rusiya EA-nın Şərqşünaslıq İnstitutunda çalışıb. Cənubi Azərbaycan tarixi üzrə tədqiqatların müəllifidir. Moskvada "Ocaq" Mədəniyyət Cəmiyyətinin rəhbəri olub.

**13 dekabr 1937** – Əməkdar memar Abbas Abbas oğlu Ələsgərov (1937 – 18.2.2018) Bakıda doğulub. Azərbaycan Memarlar İttifaqının, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri olub.

### Dünya

**10 dekabr 1821** – Rus şairi, yazıçı və publisist Nikolay Alekseyeviç Nekrasov (1821 - 8.1.1878) anadan olub. "Rusiyada kim yaxşı yaşayır", "Rus qadınları", "Şaxta, Qırmızıburun", "Kəndli uşaqları" və s. poemaların müəllifidir.

**10 dekabr 1890** – Başqırd şərqşünası və türkoloqu, filosof, ictimai-siyasi xadim Əhməd Zəki Validi Toğan (1890 – 28.7.1970, Türkiyə) anadan olub.

**11 dekabr 1803** – Fransız bəstəkarı Hektor Berlioz (Louis-Hector Berlioz; 1803 – 8.3.1869) anadan olub. Əsərləri: "Fantastik simfoniya", "Benvenuto", "Çellini" operaları və s.

**11 dekabr 1890** – Argentina müğənnisi, aktyor, tanqo rəqqası Karlos Qardel (Carlos Gardel; 1890-1935) anadan olub. Onun şərəfinə 11 dekabr bir sıra ölkələrdə "Beynəlxalq tanqo günü" kimi qeyd olunur.

**11 dekabr 1913** – Fransız aktyoru, rəssam, heykəltəraş Jan Mare (Jan Alfred Villen-Mare; 1913 – 8.11.1998) anadan olub. "Bəyaz gecələr", "Qraf Monte-Kristo", "Parisin sirləri", "Dəmir maska" və s. filmlərdə yaddaqalan rollar yaradıb.

**11 dekabr 1918** – Rus yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1970) laureatı Aleksandr İsayeviç Soljenitsın (1918 – 3.8.2008) anadan olub. 1945-1953-cü illərdə həbsdə, sonra Sibirdə sürgündə olub. 1973-cü ildə SSRİ-dən deportasiya olunub, ABŞ-da yaşayıb, 1994-də Rusiyaya qayıdıb. "Xərçəng korpusu", "Birinci dairədə", "Qırmızı təkər" və s. romanların müəllifidir.

**11 dekabr 1930** – Fransız aktyoru, rejissor Jan-Lui Tretinian (Jean-Louis Trintignant; 1930 – 17.6.2022) anadan olub. Baş rolu oynadığı "Kişi və qadın" filmi (1966) iki dəfə "Oskar" alıb.

**12 dekabr 1821** – Fransız yazıçısı Qustav Flober (Gustave Flaubert; 1821 – 8.5.1880) anadan olub. "Madam Bovari", "Salambo", "Hisslərin tərbiyəsi" və s. romanların müəllifidir.

**12 dekabr 1863** – Norveç rəssamı Edvard Munk (Edvard Munch; 1863-1944) anadan olub.

**12 dekabr 1915** – Amerikalı müğənni, aktyor Frenk Sinatra (Francis Albert Sinatra; 1915 – 14.5.1998) anadan olub.

**12 dekabr 1928** – Qırğız yazıçısı Çingiz Aytmatov (1928 – 10.6.2008) anadan olub. "Cəmilə", "Əlvida, Gülsarı!", "Üz-üzə", "Torpaq ana", "Ağ gəmi", "Əsrə bərabər gün", "Edam kötüyü", "Dağlar düşəndə" və s. əsərlərin müəllifidir.

**13 dekabr 1720** – İtalyan dramaturqu, nağıl-pyeslərin müəllifi Karlo Qotsi (Carlo Gozzi; 1720-1806) anadan olub.

**13 dekabr 1797** – Yəhudi əsilli alman şairi, yazıçı, ədəbiyyatşünas Henrix Heyne (Christian Johann Heinrich Heine; 1797 – 17.2.1856) anadan olub. Əsərləri: "Nəğmələr kitabı" (poeziya), "Hars dağına səyahət" (nəsr) və s. Məşhur bəstəkarlar (F.Şubert, R.Şuman, P.Çaykovski) Heynenin şeirlərinə musiqi yazıb.

**13 dekabr 1949** – Məşhur türk kinoaktyoru, yazar Tarık Akan (Tarık Tahsin Üregül; 1949 – 16.9.2016) anadan olub.

**Hazırladı: V.Orxan**

№91 (1964)
9 dekabr 2022
www.medeniyyet.az

# Berlində Firəngiz Əlizadənin yubiley konserti





Azərbaycanın Almaniyadakı Səfirliyi dekabrın 6-da Berlində görkəmli bəstəkar, UNESCO-nun "Sülh artisti", Azərbaycan Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadənin 75 illik yubileyi münasibətilə konsert təşkil edib. Tədbirə yubilyar özü də qatılıb.

Səfirlikdən bildirilib ki, Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində keçirilən tədbirdə əvvəlcə Firəngiz Əlizadə haqqında film nümayiş olunub.

Firəngiz Əlizadənin həyat və yaradıcılığından söhbət açılıb. Qeyd edilib ki, gənc yaşlarından musiqi əsərlərinin müəllifi olan bəstəkar beynəlxalq səviyyədə uğurlara imza atıb. Onun əsərləri dünyanın bir çox tanınmış musiqiçiləri və orkestrləri tərəfindən ifa olunur. Bəstəkar Azərbaycan və xaricdə pedaqoji fəaliyyətlə də məşğul olur və çoxlu sayda musiqiçilərin yetişməsində əməyi var.

Sonra Azərbaycandan gələn musiqiçilərin ifasında Firəngiz Əlizadənin əsərlərindən ibarət konsert təqdim olunub. Bəstəkarın "Rəqs", "Dastan", "İmpuls", "Muğamsayağı" və digər əsərləri böyük maraqla dinlənilib.

# TÜRKSOY-da qırğız yazıçısı Toktobolot Abdumomunovun 100 illiyi qeyd olundu

Qırğız peşəkar teatrının qurucularından biri, Qırğızıstanın Xalq yazıçısı Toktobolot Abdumomunovun (1922-1989) anadan olmasının 100 illiyi münasibətilə dekabrın 6-da Ankarada, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un ofisində konfrans keçirilib.



Tədbirdə TÜRKSOY-un baş katibi Sultan Raev, Qazaxıstanın Türkiyədəki səfiri Yerkebulan Sapiyev, Avrasiya Yazarlar Birliyinin sədri Yaqub Öməroğlu, Qırğız Respublikası Prezidenti yanında Dil Komissiyasının sədri professor Kanibek Osmanaliev, Toktobolot Abdumomunovun oğlu İshak Abdumomunov, digər qonaqlar iştirak ediblər.

Mərasimdə açılış nitqi söyləyən Sultan Raev qırğız xalqının, eləcə də Türk dünyasının tanınmış şəxsiyyəti, dramaturq və mədəniyyət xadimi Toktobolot Abdumomunovun yubileyini TÜRKSOY-un çətiri altında birlikdə yad etməkdən məmnunluğunu ifadə edib. Yazıçının yaradıcılığından bəhs edən baş katib deyib: "Toktobolot Abdumomunov qırğız ədəbiyyatına, milli teatrına və dramaturgiyasına böyük töhfələr verib, milli dramaturgiyanı peşəkar səviyyəyə çatdırıb. Abdomomunov qırğız səhnəsində ən gözəl pyesləri tamaşaya qoyub və onun əsərləri qırğız ədəbiyyatının qızıl irsinə çevrilib...".

Digər çıxış edənlər görkəmli ədibin irsinin əhəmiyyətindən, qırğız milli teatrının inkişafında xidmətlərindən söz açıblar.

Qırğızıstanlı rejissor Asankoco Aitıkeevin Toktobolot Abdumomunov haqqında sənədli filmi nümayiş olunub.

Konfransın ikinci hissəsində Qırğızıstandan dilçi alim Ümit Kultaeva, rejissor Asankoco Aitıkeev, Hacı Bayram Vəli Universitetinin müəllimi Naciye Yıldızın Toktobolot Abdumomunov haqqında məruzələri dinlənilib.

Tədbir musiqili proqramla davam edib.

Konfransın sonunda baş katib Sultan Raev rejissor Asankoco Aitıkeevə TÜRKSOY-un "Toktokul Satılqanov" medalını və iştirakçılara sertifikatlar təqdim edib.

**Mehparə Sultanova**
**Ankara**




# Antalyada "Cənnətim Qarabağ"

Türkiyənin Antalya şəhərində Şuşanın 270 illiyi ilə bağlı "Cənnətim Qarabağ" mövzusunda silsilə tədbirlər keçirilib.

Antalya Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyi, Antalya Təhsil İdarəsi və Kəpəz Bələdiyyəsinin birgə təşkilatçılığı ilə tədbirlər şəhərdəki İncəsənət və Gülverən Anadolu liseylərində, eləcə də Erdem Bayazıt Mədəniyyət Mərkəzində təşkil olunub.

Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət gimnaziyası heyətinin də qatıldığı tədbirlər zamanı əl işləri və Qarabağ, Şuşa haqqında nəşrlərdən ibarət kiçik sərgi də açılıb.

Dərnəyin sədri Ceyran Səttarova, Antalya Təhsil İdarəsinin rəhbəri Emre Çalışkan, liseylərin müdirləri, İncəsənət gimnaziyasının müəllimi Hicran Sadıqzadə çıxış edərək Azərbaycan-Türkiyə qardaşlığı və şanlı Qarabağ Zəfəri haqqında danışıblar. Ölkələrimiz arasında tarixi münasibətlərin Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamının prinsipi əsasında davam etdiyi qeyd edilib.

Bədii hissədə İncəsənət gimnaziyasının müəllim və şagirdləri, eləcə də Əməkdar artist Firuzə İbadova konsert proqramı ilə çıxış ediblər. Proqramlarda muğam, xalq mahnıları və milli rəqslər ifa olunub, səhnəciklər göstərilib.

Sonda iştirakçılara xatirə lövhələri, təşəkkürnamələr təqdim edilib.

# Napoleondan sonra Müqəddəs Yelena adasının ikinci məşhur "sakin"i



"Conatan" dünyanın quruda yaşayan və təxmini yaşı məlum olan ən uzunömürlü canlısıdır. Tısbağa Atlantik okeanında Britaniya ərazisi olan Müqəddəs Yelena adasında yaşayır. Dekabr ayında adanın sakinləri "Conatan"ın 190 yaşını qeyd edirlər.

Tısbağaya qulluq edən təqaüdçü baytar Co Hollins bildirib ki, tısbağa 1882-ci ildən Müqəddəs Yelena adasında yaşayır. O qeyd edib ki, tısbağanın dəqiq yaşı bilinməsə də, 140 il əvvəl adaya gətirilən zaman çəkilmiş şəkillərə görə həmin vaxt onun ən azı 50 yaşında olduğunu söyləmək mümkündür.

Qeyd edək ki, bu il "Conatan" dünyanın quruda yaşayan ən uzunömürlü canlısı kimi "Ginnesin rekordlar kitabı"na salınıb. Onun sayəsində adını tarixdən bildiyimiz Müqəddəs Yelena adası bu günlərdə yenidən dünya mediasında xəbər mövzusuna çevrilib.

Xatırladaq ki, Atlantik okeanında Afrika qitəsindən 2800 km qərbdə yerləşən bu ada Fransa imperatoru Napoleon Bonapartın ömrünün son illərini yaşadığı məkan kimi dünyada tanınıb. Bonapart Avropa müharibələrində məğlubiyyətindən və hakimiyyətinin tam süquta uğramasından sonra, 1816-cı ildə Müqəddəs Yelena adasına sürgün edilmiş və 1821-ci ildə burada ölmüşdü.

Süveyş kanalı tikilənə qədər bu ada Hind okeanına üzən gəmilər üçün dayanacaq məntəqəsi kimi mühüm əhəmiyyət daşıyıb. Adada Bonapartın sürgündə olan zaman yaşadığı iki ev və dəfn olunduğu yer Fransaya aid tarixi abidə kimi qorunur.

**V.Kamal**

# İzmirdə beynəlxalq festival

## Ölkəmizi ƏSA Teatrı təmsil edir




2-12 dekabr tarixlərində Türkiyənin İzmir şəhərində ənənəvi teatr festivalı keçirilir. Mədəniyyət və İncəsənət üçün Sosial Araşdırmalar Vəqfi (TAKSAV) tərəfindən təşkil olunan 10-cu Beynəlxalq İzmir Teatr Festivalına Azərbaycanın inklüziv teatrı olan ƏSA Teatrı da dəvət edilib.

Festivalda Türkiyənin müxtəlif şəhərləri, eləcə də Azərbaycanla yanaşı, Uruqvay, İraq, Ukrayna, Almaniya kimi ölkələr təmsil olunur.

ƏSA Teatrı dekabrın 10-da İzmir Sənət Mərkəzinin səhnəsində "Çıxış yoxdur" tamaşasını təqdim edəcək. Jan-Pol Sartrın "Bağlı qapı arxasında" pyesi əsasında hazırlanmış tamaşanın quruluşçu rejissoru Nihad Qulamzadə, prodüseri Nicat Qulam, işıq rəssamı Binyamin Sailovdur. Səhnə əsərində Elşən Əsgərov, Lalə Süleymanova, Səmayə Qulamzadə, İmran Lalayev, Aysel Feziyeva, Amin Əsgərov və Gülçin Qasımova çıxış edirlər.

# İraqdan aparılan mədəni irs nümunələri geri gətirilir

İraqdan qeyri-qanuni yollarla çıxarılan bir çox mədəni irs nümunələri geri gətirilir. Bu barədə ölkənin xarici işlər naziri Fuad Hüseyn deyib.

İraq ərazisindəki qədim sivilizasiyaların abidələrinin keçmişdə müxtəlif təhdidlərə məruz qaldığını bildirən nazir qeyd edib ki, bu abidələrin bir qismi terror yolu ilə məhv edilib. Lakin terror aktları bütövlükdə tarixi silə bilməz.

İraq hökumətinin oğurlanmış tarixi əsərlərin geri qaytarılması üçün müxtəlif dövlətlərlə əməkdaşlığı gücləndirmək istədiyini vurğulayan F.Hüseyn qaçaqmalçılıq yolu ilə aparılan 18 mindən çox artefaktın ölkəyə qaytarıldığını bildirib. Lakin nazir bu nümunələrin nə vaxt və haradan gətirildiyini deməyib.

2003-cü ildə ABŞ-ın İraqa müdaxiləsi zamanı ölkənin müxtəlif əyalətlərində, xüsusən də Bağdadda bir çox muzeylər talan edilib.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 227 il əvvəl...

**9 dekabr 1795-ci ildə** general Savelyevin başçılıq etdiyi çar Rusiyası qoşunları Dərbənd istiqamətində Azərbaycan ərazisinə soxulublar. Ruslar bir ay ərzində Gəncəyədək irəlilədikdən sonra geri qayıdıblar. 1796-cı ilin yazında general V.Zubovun başçılığı altında rus qoşunları Dərbəndi ələ keçirdilər. Bu, Azərbaycan torpaqlarının Rusiya imperiyası tərəfindən işğalına (1801-1828) hazırlıq yürüşləri idi.

### 192 il əvvəl...

**11 dekabr 1830-cu ildə** Polşada çar Rusiyasının müstəmləkəçiliyinə qarşı üsyan başlayıb. XVIII əsrdə Reç Pospolita (Polşa Krallığı) Rusiya və Almaniya tərəfindən bölüşdürüləndən sonra ölkənin əsas hissəsi Rusiyanın nəzarətinə keçmişdi. 1831-ci ilin yanvarında Seym (Polşanın formal qanunverici orqanı) ölkənin Rusiya tabeçiliyindən çıxması barədə qərar qəbul etdi. Çar I Nikolay Polşaya qoşun dəstələri göndərdi və 1831-ci ilin may-avqustunda üsyan qan içində boğuldu. Həmin ilin sentyabrında Polşanın Rusiya tərkibində nisbi muxtariyyəti də ləğv edildi.

### 124 il əvvəl...

**10 dekabr 1898-ci ildə** Parisdə İspaniya-ABŞ müharibəsinin yekunlarına dair sülh sazişi imzalanıb. Sazişə əsasən, İspaniyanın Sakit okean və Karib hövzəsindəki müstəmləkələri – Kuba, Puerto-Riko, Quam, Filippin ABŞ-nin nəzarətinə keçdi. Birləşmiş Ştatlar bu ərazilərin əvəzində İspaniyaya o vaxtın pulu ilə 20 milyon dollar ödədi.

### 121 il əvvəl...



**10 dekabr 1901-ci ildə** ilk Nobel mükafatları laureatlara təqdim edilib. Stokholmda İsveç Kralı tərəfindən fizika (Konrad Rentgen, Almaniya), kimya (Yakob Hendrik Van Qoff, Niderland), biologiya (Emel Adolf Berinq, Almaniya), ədəbiyyat (Fransua Arman Sülli-Prüdom, Fransa) üzrə mükafatları, Osloda isə Norveç Kralı tərəfindən Nobel sülh mükafatı ("Qızıl xaç" hərəkatının banisi Anri Jan Dünan (İsveçrə) və fransız Frederik Passi) təqdim olunub.

### 108 il əvvəl...

**9 dekabr 1914-cü ildə** Birinci Dünya müharibəsi gedişində Rusiya və Osmanlı qoşunları arasında ilk irimiqyaslı toqquşma – Sarıqamış döyüşü başlanıb. 5 yanvar 1915-ci ilədək davam edən döyüşdə türk qoşunlarının məğlubiyyəti rus qoşunlarının həmin il ölkənin şimal-şərq bölgələrini işğal etməsinə imkan yaratdı.

### 74 il əvvəl...

**9 dekabr 1948-ci ildə** BMT-nin Baş Assambleyası "Genosid cinayətləri və onun cəzalandırılması haqqında" beynəlxalq konvensiya qəbul edib. Konvensiya soyqırımı cinayətlərinə qarşı qəbul edilən ilk beynəlxalq sənəddir.

**10 dekabr 1948-ci ildə** BMT-nin Baş Assambleyasının sessiyasında "İnsan haqları haqqında Bəyannamə" qəbul olunub. Bəyannamə insan hüquq və azadlıqları sahəsində beynəlxalq səviyyəli ilk fundamental sənəddir. 10 dekabr dünyada İnsan Haqları Günü kimi qeyd olunur.

### 31 il əvvəl...




**9 dekabr 1991-ci ildə** İslam Əməkdaşlıq Təşkilatının Dakarda (Seneqal) keçirilən sammitində Azərbaycan Respublikası üzvlüyə qəbul edilib. Bu, müstəqil Azərbaycanın üzv olduğu ilk beynəlxalq təşkilat idi.

**11 dekabr 1991-ci ildə** Rumıniya Türkiyədən sonra Azərbaycanın müstəqilliyini tanıyan ikinci ölkə olub. İki ölkənin diplomatik əlaqələri 1992-ci il iyunun 21-də quruldu.

### 30 il əvvəl...

**10 dekabr 1992-ci ildə** Ermənistan silahlı qüvvələri Azərbaycanın Zəngilan rayonunun sərhədyanı kəndlərinə hücum edib. Üç gün davam edən hücum nəticəsində 10-a yaxın kənd işğal olunub. 1993-cü ildə Ermənistan tərəfindən tamamilə işğal olunan rayonun ərazisi 2020-ci ilin Vətən müharibəsində azad edildi.

### 28 il əvvəl...

**10 dekabr 1994-cü ildə** Rusiyanın federal qoşun hissələri Çeçenistan ərazisinə daxil olub. Birinci Çeçenistan müharibəsi başlanıb. Rusiyanın müdafiə naziri Pavel Qraçov Kremli əmin etmişdi ki, dekabrın sonunadək Çeçenistandakı qanunsuz hərbi birləşmələr məhv ediləcək və bölgə tamamilə federal nəzarətə alınacaq. Lakin müharibə 1997-ci ilədək davam etdi. 1997-ci ildə Çeçenistan müharibəsində atəşkəs əldə edildi, Moskva Mashadov hökumətini tanıdı. Amma atəşkəs iki il sürdü və 1999-cu ilin sentyabrında ikinci Çeçenistan savaşı başlandı.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5078. **Sifariş:** 3597
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641